♦ Nəsr

Zahid SARITORPAQ

# KÖHNƏ MÜCRÜYƏ ELEGİYA



♦ Roman

## Birinci bölüm. Tərəzinin üçüncü gözü olmur...

Yuxudan oyanınca, həmişəki kimi: "Allah, sən kömək ol..." deyib gərnəşdim və gözləmədiyim halda, qəfil fərqinə vardım ki, gecə-gündüz dilimdən düşməyən "Allah" sözünün sonu "ah"la bitir... Yerimin içindəcə quruyub qaldım, tüklərim biz-biz oldu...

Sonra pəncərədən boylanıb, gözlərimi qara buludlu göy üzünə dikdim. Hayqırmaq istədim ki, "niyə belədi axı? niyə? niyə?" Səsim çıxmadı. Əvəzində, içimdəki yanğıyla təzədən bir də "Allah..." pıçıldayıb, ardınca da dərindən ah çəkib, yastığı qucaqladım. Elə bil yastıq bir daş idi. Hə, yastıq daş kimiydi. İndi üzümü ona qoyub uzanmamışdım, sadəcə, qucaqlayıb oturmuşdum çarpayıda. Yamacda bitən kola oxşayırdım, elə bil qucağıma yuxarılardan bir daş diyirlənib düşmüşdü, ağuşuma alıb kirimişcə qalmışdım...

...Bax, indi yol gedirəm, eləmi? Küçə boyunca yeridikcə, ovcumun içi kimi bilirəm, yoldan keçən tanımadığım o qaraqabaq adam da məndən qat-qat bəxtəvərdi. Yarısınacan qurumuş o iydə ağacı da məndən gözəl ömür sürür, budağında büzüşən o sərçə – dünyada ən zəhləmgetmiş quş olan o sərçə də məndən xoşbəxtdi. Hə, sərçə!.. Dünyanın ən iyrənc, ən murdar quşu!.. Soruşan olar ki, niyə? Deməyimmi ay Allah, deməyimmi niyə? Dünyada ən zəhləmgedən quşdu da sərçə, bəlkə elə deyil?! Sərçəylə bağlı elə bir yaram var ki, beynimin içini kürüyüb atsalar da, bütün yaddaşımı silib-süpürsələr də, unudulmayacaq. Çünki sümüklərimə hopub az qala. Yaddaşımda elə qalıb ki, deyəcəklərimi anlayan, məni başa düşən hər kəs bu quşa nifrət eləyər... Atam çox kasıb idi. Xasiyyəti bir qədər ötkəm olsa da, çox vaxt zavallı anama əzablar versə də, çox istəyirdim onu, çox... On iki yaşım olanda, pioner düşərgəsinə göndərmişdi məni. Uçurdum sevindiyimdən. Çünki məktəb yoldaşlarım, qonşu uşaqların çoxu hər yay orda dincəlirdi, mənsə kasıbçılıq ucbatından gedə bilmirdim. O yay atam deyəndə ki, səni də düşərgəyə göndərəcəm, sevincimdən bilmədim neyləyim, üç gecə gözümə yuxu getmədi.. Bu, məndən ötrü misilsiz bir hədiyyəydi. Nə isə, düşərgəyə bir neçə gün idi gəldiyim.

Yayın cırhacırıydı. Bir gecə yatıb yuxuda gördüm ki, atamla bömboz bir çöllükdəyəm, qızmar bir düzənlikdi, hər tərəf istidən az qala od tutub yanır. O, ar-

xası üstə yıxılıb, gözləri dirənib göyə, güclə pıçıldayır: "İshaq, su... su... ölürəm..." Əlim heç yana çatmır, ora-bura qaçır, ağlaya-ağlaya, "ölmə, ata, ölmə, noolar..." deyə-deyə su axtarıram... Birdən bir xeyli aralıda bir gölməçə görürəm, yüyürürəm oraya, amma su götürməyə qab yoxdu axı. Ha axtarsam da, heç nə tapmıram. Başımı itirirəm. Qəfil ağlıma gəlir ki, cib dəsmalımı isladım aparım... Atam orada "su... su..." deyə-deyə zarıyır. Hə, cib dəsmalımı götürmək üçün əlimi cibimə salıram, görürəm yoxdu və... qəfildən, düşərgəyə gələndə onun alıb mənə bağışladığı şara toxunur əlim. Elə bil bütün dünyanı mənə verirlər. Səndəllərimi çıxarıb tələsik girirəm gölməçəyə, çünki kənarları çox dayaz olduğuna görə qorxuram şarı doldura bilməyəm. Suyu ağzımla sorub şarın içinə boşaldıram. Xeyli yığdıqdan sonra boğazını düyünləyib yerə qoyuram ki, tikanlı çöllükdə hərəsini bir tərəfə tulladığım səndəllərimi geyib yüyürüm atamın yanına. Bir də görürəm, budur, bir cüt sərçə bir-biriylə savaşa-savaşa, cikkildəşə-cikkildəşə, toza bulaşa-bulaşa özlərini çırpırlar şarın yanına və bir andaca qonurlar üstünə... Gözümün önündəcə şar onların iti caynaqlarından yırtılıb cırılır və su dağılır torpağın cadarına. Qışqırıb yuxudan ayılıram... Demə, zavallı atam elə həmin gecə mən o yuxunu görən anlarda ikinci dəfə infarkt keçirərək ölübmüş. Sonralar anama danışmışdım yuxumu. O da, üzümə heyrətlə baxıb demişdi ki, son sözü elə "su..." olubmuş atamın və mətbəxdən ona bir stəkan su gətirənəcən ölübmüş... Hər dəfə bu yuxu yadıma düşəndə, olub-bitənlərin fərqinə varanda titrəyirəm. Lap indiki kimi – "Allah" sözünün sonunun "ah"la bitdiyini dərk edəndə olduğu kimi... Elə o vaxtdan nifrət edirəm bu quşa. İndi də elə bilirəm ki, yuxuda atama su çatdıra bilsəydim, o, sağ qalardı.

* * *

Elə bil qarğalar leşə yığışmışdı, məhlə camaatı tində bir araya gəlib bərkdən-bərkdən nəyisə müzakirə eləyirdi. Heç nəyə fikir vermədən, yanlarından həmişəki kimi salamsız-kəlamsız keçib getdim. Deyəsən, heç məni görmədilər. Küçənin o üzündə avtobus dayanacağıydı, arxasında da Nuh-Nəbidən qalma, dörd tərəfi taxta hasara alınmış, yaşımdan da qabaq tədarük idarəsinin taxıl anbarına çevrilmiş gözəl bir məscid. Ona görə gözəl deyirəm ki, minarələri, üç günbəzindən ikisi otuzuncu illərdə uçurdulub viran qoyulsa da, divarları, girəcəkdəki tağları, necə var, eləcə qalmışdı, özü də çox sanballıydı, daşların üstü oyma üsuluyla işlənmişdi. Tağların bir-birinə çataqlanıb bitişdiyi yerdə divarın hamar üzündə daşları oyub qabarıq şəkildə ərəbcə nəsə yazmışdılar. Lövbərə oxşayan bu möhtəşəm yazı diqqətimi çoxdan çəkirdi. Özümdən ixtiyarsız üzümü çevirib o yazını yenə heyran-heyran süzdüm. Düzdü, lövbərin cəmi iki, ya üç dişi olur, bununku beş idi. Mənasını bilmirdim amma. Baxışlarım ona zillənmişdi ki, məndən iki addım o tərəfdə dayanan oğlan gözümü yazıdan çəkmədiyimi görüb dedi:

– Babam həmişə deyirdi ki, orda Allah yazılıb, dayı.

Üzünə baxmadan, gözümü yazıdan ayırmadan mızıldandım:

– Həə. Maraqlıdı... Nədənsə, mən həmişə lövbərə oxşatmışam...

Onun yaxınlığında balacaboy bir qadınla yanaşı dayanan yaşlı kişi geri qanrılıb bir anlıq üzümə tərs-tərs baxdı.

Bu vaxt dayanacağın skamyasında oturanlardan kimsə astadan mənə tərəf səsləndi:

– Kaş o lövbər dediyiniz var haa, hamının ürəyinə atılmış olaydı...

Özümü eşitməzliyə vurub üzümü yana çevirdim. Bildim ki, nəsə desəm, söhbət gedib dinə çıxacaq. Bu isə mənlik deyildi. Çünki dərindən maraqlanmadığıma görə, din deyilən şeydən başım çıxmırdı. Getmək istəyəndə ötəri

fikir verib gördüm ki, skamyada bircə nəfər adam oturub. Bildim ki, mənə sarı səslənən, hardasa yaşıdım olan həmin o orta yaşlı kişidi. Onu tanıyırdım, əvvəllər tindəki çörək dükanında işləyirdi. O vaxt çoxlu pişik saxlayırdı. Sonralar necə oldusa, özü də, pişikləri də qəfil yoxa çıxdı. Bir daha onu görmədim. İndi üzümə baxıb gülümsünürdü.

Bir az aralanmışdım ki, fikriləşdim: "Hara gedirəm belə? Mən axı avtobusa minməliyəm". Di gəl, geri dönmədim. "Cəhənnəmə, o biri dayanacağa qədər piyada gedərəm, həm də bir az gəzişərəm, qolum, qıçım açılar" – düşündüm. Amma bir də ayıldım ki, azı üç dayanacaq piyada getmişəm...

İdman lotosu satılan köşkün arxasındakı binanın birinci mərtəbəsində təzə bir mağaza açmışdılar, içi tutuquşuyla doluydu. Bunu heç görməmişdim. Ayaq saxladım. Böyük pəncərənin o üzündə çoxlu sayda xırda qəfəs asılmışdı. Qəfəsdəki tutuquşular çox gözəl idi, dayanıb xeyli baxdım.

– Maraqlıdı, hə?

"Bu kimdi? Amma kimdisə, səsi tanış gəlir". Üsulluca sağa buruldum. Bu, o idi; bayaq dayanacaqda gördüyüm adam. Keçmişdə küçəmizin tinindəki çörək dükanında işləyən, çoxlu pişik saxlayan kişi. Heç nə deməyib başımı tərpətdim. O da bir xeyli susdu.

– Bəs darıxmırsız? – O, sükutu pozdu. Özlüyümdə elə mən də bu mehriban adamdan nəsə soruşmaq istəyirdim. Ancaq o, məni qabaqladı.

– Nədən darıxmalıyam ki?

–Bura cansıxıcıdı, çox cansıxıcıdı... Pişiklərimin biri də mənə yaxın gəlmədi, inanırsız, biri də... Ürəyim partlayır az qala...

Sonra o, siqareti yandırdı, dərin bir qullab vurub tüstünü acıqla, hirslə burnunun deşiklərindən üfürdü və təkrarladı:

– Bəs siz...

Avtobus on addım qabaqda saxlayınca, özümdən ixtiyarsız onun sözünü ağzında qoydum, "Mən getdim!" – deyib qaçdım. Özümü arxa qapıdan maşının salonuna təpdim, içəridə adam çox idi, ayaq üstə durası oldum. Haçandan-haçana tövşüməyim kəsildi, özümə gəlib ətrafa nəzər saldım. Arxa oturacaqda, mənə yaxın yerdə dörd cavan oğlan oturmuşdu. Onlardan ikisi üzümə baxıb bir-birinin qulağına nəsə pıçıldayırdı. Üzdən tanış gəlirdilər. Ancaq kim olduqlarını heç cür yadıma sala bilmirdim. Çox həyəcanlıydılar. Növbəti dayanacaqda, mənə toxunmaqdan qorxurmuş kimi, gözləri üzümdə, böyrümdən ehmallıca sivişib qapıdan özlərini çölə atdılar. Elə bil, bu basırıqda mənə toxunsaydılar, onları elektrik cərəyanı vuracaqdı. Yerə sıçrayanda qabaqdakının az qala ürəyi ağzından çıxa-çıxa: "Odu!.. Anam canı, odu!.." – dediyini eşitdim. Nə baş verdiyini anlamağa macal tapmamış, çörəksatanın da maşında olduğunu, özü də qabaq qapının yanından boylanıb üzümə irişdiyini gördüm, ağlım çaşdı...

Alnımın, ovuclarımın tərlədiyini hiss elədim. Fikir məni götürmüşdü, başımı aşağı salıb tutacaqdan güclə yapışmışdım. "O uşaqlar kim idi axı? Niyə məni görüb həyəcanlandılar? Niyə mənə toxunmaqdan qorxdular? Bəs bu çörəksatan haçan mindi avtobusa? Özü də qabaq qapıdan..."

Sürücünün kobud səsi eşidildi:

– Altı nömrəli məktəb. Düşən var? Xahiş edirəm, gediş haqqını verməyi unutmayın...

Başım dumanlı, ağlımda bir-birinə dolaşmış yüz cür "ilan-qurbağa", avtobusdan haçan düşüb getdiyimi bilmirəm. Qabaqda qocaman şam ağaclarının altında köhnə bir çayxana vardı, bəlkə də bu kiçik şəhərdə yeganə məkan idi ki, sahibi nərd, domino oynamağa icazə vermirdi. Əsl mənim yerim idi. Amma axırıncı dəfə burada haçan olduğum yadıma gəlmirdi. Özümü çatdırıb bu sakit məkanda bir çaynik çay sifariş eləməyi düşündüm. Sevirəm də sakitliyi.

Ömrüm boyu özümlə baş-başa qalmaqdan ötrü dəridən-qabıqdan çıxmışam. Amma sevinməyə macal tapmadım, istəyim "boğazımda qaldı".

– Bir çaynik. Özü də kəklikotulu.

– Neçə stəkan gətirim? Təksiz?

– Hə, təkəm. – Özüm də çayçıya təəccüb elədim. Yəni görmür təkəm?

– Yox. Stəkanı iki elə... – Çörəksatan idi. Arxa tərəfdən peyda olub, icazəsiz-filansız stulu çəkib oturdu.

Bu hardan gəldi çıxdı?!

– Dayı, necəsən? – Çayçı onunla hal-əhval tutdu. Salam-əleykdən sonra dərhal söhbətə girişdi: – Səndən sonra Mızdırı saxlaya bilmədim. Bir dəfə yatdığım yerdə üzümə cırmaq atdı, rədd elədim getdi, axmaq pişik idi.

– İndi rastıma çıxsa məni də cırmaqlayar... Məni heç biri tanımır day, heç biri. Heç qucağımda, bağrımın başında böyütdüyüm Xanpış da... Xanpış eey, başa düşürsən bu nə deməkdi? – Çörəksatan mızıldandı.

Bəlkə, durum ayağa?! Yox eey, yaxşı çıxmaz. Adamdı daa, qoy otursun. Ürək qızdırıb, icazəsiz oturub mənimlə, hə, noolsun? Çıxıb getsəm, alınmaz. Özü də pis adam deyil axı. Zarafatcılın biridi. Adamın gözü-könlü açılır beləsiylə. Yadıma gəlir ki, haçansa bir dəfə bu yaxınlarda, ya bir qədər əvvəl, dəqiq bilmirəm nə vaxt... hə, ondan çörək alırdım, "noolub – dedi, – niyə sozalmısan?" – Halsız-halsız: "Heç nəyə umudum yoxdu, heç nəyə..." – dedim. Güldü: "Niyə qorxursan, a zalım? Öyrəşəcəksən də... Hayıf deyil yerin altı? Qışda isti, yayda sərin. Burda dolanışıq dərdi çəkib, arvad danlağından çürüməkdənsə, orda bir böyrünü yerə verib, yavaş-yavaş yox olursan daa özünçün, nöş qorxursan?..."

Amma yazıq özü məndən qabaq yoxa çıxdı. Birdəfəlik görünməz oldu qəfildən. Hara getdiyini heç bilən olmadı. Ən azından, mən bilmədim.

– Hə, necədi buralar?..

– Haralar?

Güldü. Yüngülcə yerindən qalxdı, burnunu yuxarı tutub havanı qoxuladı:

– Buxur iyi verir eey, buxur iyi! Cənnətdi buralar! – Sonra da üzünü mənə çevirib astaca fısıldadı: – Buranı deyirəm dəə, haranı deyəcəm ki? Xoşuna gəlmir? Bəlkə...

Sözü ağzında qaldı. Qəfil yerindən sıçrayıb qışqırdı:

– Motış!!! Moo-tıışşş!

Böyrümüzdəki qocaman şam ağacından enən pişiyin dalınca ildırım sürətiylə, yaşına yaraşmayan bir tərzdə qaçmağa başladı. Mən onun qabağınca şütüyən pişiyin ala-bula olduğunu yalnız çayxananın arxasına burulanda gördüm. Sonra onlardan xəbərim olmadı. Daha doğrusu, çörəksatan qayıtmadı. Çayı tək içdim.

Tərləmişdim. Nədənsə, tərimdən yulğun iyi gəlirdi. Bayaq çörəksatanın havanı qoxulayıb "Buxur iyi verir eey, buxur iyi! Cənnətdi buralar!" deməyi düşdü yadıma. Buxurun iyi necə olur? – bilmirdim. Buraların cənnət olub - olmaması da mənə məlum deyildi. Amma yulğun iyi məni kövrəldirdi deyəsən. Qəribsəmişdim. Qəlyanımı doldurub tüstülətdim. Tənbəki kisəsini cibimə qoyub ayağa qalxdım...

Artıq dörd saat olardı ki, şəhəri dolaşırdım. Niyə? Hara hansı məqsədlə getdiyimi elə bil unutmuşdum. O tin sənin, bu tin mənim, şəhəri sülənməkdən bezmişdim. Yadıma sala bilmirdim evdən niyə çıxdığımı. Dərd ondaydı ki, hər şeyi axşamlar bloknotuma qeyd eləsəm də, bəzən gündüzlər bloknotun özünü yadımdan çıxarırdım. Hər dəfə də deyirdim, gərək onu qoltuq cibimə deyil, yan cibimə qoyam ki, əlim tez-tez toxuna, açıb oxuyam. Amma hər dəfə də unudurdum, qoyurdum qoltuq cibimə və unudurdum... Unudurdum əynimdə pencək, pencəyimin qoltuq cibində bloknot, bloknotumda da alın yazısı kimi bir

planım olduğunu... Nəsə... İndi geriyə qayıtmaq istəyirdim. Yorğunluq hiss eləməsəm də, mənasız yerə dolaşmaqdan usanmışdım. Artıq günortaydı. Aclığım da yox idi. Köhnə univermağın üzbəüzündəki qəlyanaltının qabağından keçəndə ayaq saxladım. Yadıma düşdü ki, Fərəc burda işləyirdi. Görəsən, yenə burdadımı? Bura onun yeməkxanasıydı. Ürəklə içəri girdim. Zal dəyişik gəldi mənə, əvvəllər sahmanı tamam ayrı cür idi. Demək olar ki, heç kim yoxuydu. Bircə məndən sağ tərəfdə, pəncərənin qabağındakı stolun arxasında yaşlı bir kişi oturub şorba içirdi. Ağzını elə marçıldadırdı ki, baxan deyərdi dünyanın ən ləzzətli yeməyini yeyir.

Mən nəsə içmək istəyirdim, ürəyim susuzluqdan yanırdı. Nə qədər gözləsəm də, ofisiant yaxınlaşmırdı, başı bufetçiylə söhbətə qarışmışdı.

Deyəsən, burada tamam ayrı adamlar işləyir. Fərəcin komandasına oxşamırdı. O, burda müdir işləyəndə ofisiant da, bufetçi də qadın idi. İndi deyəsən, burda kişilər çalışır.

Nəhayət, ofisiant yaxınlaşdı.

– Fərəc işləmir?

– Kim?

– Fərəc...

Ofisiant üzümə matdım-matdım baxdı:

– Fərəc əmi ölən bunda nə gəzir, ay dayı. Çoxdan rəhmətə gedib...

Pis oldum. O, mənim əsgərlik yoldaşım idi. Arxangelskdə tikinti batalyonunda qulluq edirdik. Çox gözəl xasiyyəti vardı. Mənə çox köməyi dəymişdi.

– Nədən rəhmətə gedib?

Ofisiant mənə cavab verməyə macal tapmamış, bayaqdan ağzını marçıldada-marçıldada şorba içən kişi yumruğunu stola çırpıb qışqırdı:

– Əə, hanı aşpazınız?! Hanı buranın müdiri?! Onu bura çağır görüm, bu nə yeməkdi mənə vermisiz?

Ofisiant qorxmuş halda soruşdu:

– Noolub, ay dayı? Pis yeməkdi yəni? Bayaqdan bəs nə iştahla yeyirdin?

– Bura bax ə! Mazğımı xarab eləmə, aşpazı çağır görüm! Şorbanın içindən gəl gör nə çıxıb eey! İplik qırığı! Belə şey olar?

Əynində ağ xalat, əlində yekə bir kəfkir, həddən artıq kök, sir-sifəti turp kimi qıpqırmızı bir kişi mətbəxdən çıxdı. Çıxan kimi də müştəriyə onun danışdığı tonda cavab verdi:

– Noolub, əə? Nə hay-küy salmısan?

– Noolacaq day? Şorbadan iplik qırığı çıxıb!

– Noolsun əə? İplik qırığı çıxıb dəə... Bə nə çıxmalıdı?! Manat yarımlıq yeməkdən bəlkə xalça-palaz çıxmalıdı? Hə? Yekə kişisən əə! Hay-küy salma burda!

Müştəri baxıb, baxıb, heç nə demədi, deyəsən dili tutuldu, dodaqları altında donquldanıb başını yırğaladı, qapıya sarı yönəldi, sonra görünür, yadına düşdü ki, yeməyin haqqını ödəməyib. Geri qayıtdı, pulu stolun üstünə atıb getdi... Mənsə fikirləşiridim ki, indi o, şikayət kitabını tələb edəcək, kafeni işlədənlər də qorxacaq, çəkinəcək. Amma hər şey gözlənilməz oldu.

...Yol uzunu elə hey düşünürdüm ki, görəsən, Fərəcin ölməyini mən niyə bilməmişəm? “Fərəc əmi ölən bunda nə gəzir, ay dayı... Çoxdan rəhmətə gedib...” Necə yəni çoxdan? Onunla axırıncı dəfə bu yaxında görüşməmişdim bəs? Bə mənə demədi ki, “oğluma bu gün-sabah toy eləyəcəm”?.. Mən də dedim ki, “çağır haa, yoxsa inciyərəm...” Qəribə tərzdə güldü. “Siyahımda ən başdasan, narahat olma” – dedi. Sonra bütün günü fikir məni götürdü ki, yəqin mənimlə məzələnir, yəqin məni dolayır. Axı o, niyə elə güldü?

Gözlərimə inanmadım. Çörəksatan idi. Bir əlində ağzınacan dolu bazar zənbili, o birində də köhnə, boyağı tökülmüş qızılı rəngli balaca bir mücrü var-

dı. Zənbilin içində olanlar görünmürdü, deyəsən pal-paltar idi. Yaxınlaşar-yaxınlaşmaz:

– Getdik! – dedi. – Gəl dalımca...

Bunu o, yüz illərin dostu, doğması kimi, çox ciddi dedi, hələ bir gülümsədi də. Cavabımı gözləmədən mücrünü mənim qucağıma verdi. Elə də ağır deyildi. Artıq iş işdən keçdiyi üçün heç nə soruşmağa macal tapmadım, düzü, özümə də maraq gəldi ki, bu çörəksatan, pişiksaxlayan adam, bu qəribə məxluq məni hara dəvət edir?

– Buxur iyi gəlir eey buralardan, buxur iyi! Cənnətdi! Elə deyil? – O, eynən çayxanada etdiyi kimi, əvvəlcə üzünü göyə tutub, havanı qəribə bir tərzdə qoxuladı, sonra bir anlığa lap körpə uşaq kimi gözlərini yumub burnunu qırışdırdı. Əlini pencəyinin cibinə salıb xeyli qurdalandı, sakitcə:

– Buna bax, – dedi, – gör sənə nə göstərəcəm.

Ovcunu açdı. Üstü xal-xal, tünd qırmızıya çalan parabüzən böcəyi idi. Uşaq vaxtı buna “quşum uç” deyirdik. Hə, “quşum, uç”! Yadıma gəlir ki, yazda-yayda onu otların, güllərin üstündən asanca tutub açıq ovcumuza qoyur, əlimizi irəli uzadıb oxuyurduq:

***Quşum, uç, uç, uç!..***
***Çaydan xəbər gəlibdi,***
***Atan, anan ölübdü...***

Bir-iki dəfə beləcə oxuyandan sonra böcək uçub gedirdi...

İndi çörəksatan bu böcəyi hardan tapmışdı, bilmirəm.

Uzun, hündür daş hasarın dibiylə gedirdik. Sonra hasarın uçuq bir yerinə gəlib çatdıq, oradan içəri adladıq. Həyətin tən ortasında bizim yerlərə xas olmayan böyük bir tikili vardı. Bu, üçmərtəbəli, məktəb binasına oxşayan uzun bir binaydı. Hörgü işi görülmüşdü, dam örtüyü vurulmuşdu, amma pəncərələri, qapıları qoyulmamışdı. İkimiz də ixtiyarsız dayanıb gözümüzü binaya zillədik. Çörəksatan pıçıldadı:

– Lalların xoru...

– Nə?

– Lallar xor oxuyur, eşitmirsən?..

Tüklərim biz-biz oldu. Zənbili yerə qoyub üzümə baxdı. Mən də ixtiyarsız mücrünü yerə qoyub farağat durdum.

– Ağzı açıla qalmış o pəncərələrin, qapıların yerindəki qaranlıq boşluqları görürsən? Lallardı, lallar... Hamısı cərgələmə düzülüb, ağızlarını açıb xor oxuyur... Eşitmirsən? Qulaqların batmır?..

Deyəsən, eşitməyə başladım artıq. İndi mən ağzı açıla qalmış qapıların, pəncərələrin – lalların xorunun ritmi altında ürəyimin guppultusunu dinləyirdim!.. Elə bil, yenə ordudaydım, musiqi sədaları altında axşam gəzintisinə çıxardığım əsgərlərə təpik döydürürdüm, qulaqlarım artıq batmağa başlamışdı...

– Gəl dalımca...

Quzu balası kimi arxasınca düşüb gedirdim. İçində nə olduğunu bilmədiyim qədimi, köhnə mücrü də qucağımdaydı...

Hasarın dibində köndələn qoyulmuş köhnə vaqon vardı. Yəqin fəhlələrin soyunub-geyinmə yeridi, ya da gözətçi daxmasıdı.

– Musa! Musa! Ay Musa!..

Səsə içəridən qımışa-qımışa balacaboy, saqqallı, yaşlı, amma qıvraq bir kişi çıxdı. Baxıb - baxıb əliylə işarə elədi ki, “gəlin, keçin içəri”.

Çevrilib binaya bir də baxdım. Doğrudan da elə bil, lalların xoru şəkil çəkdirirdi. Pəncərələr, qapılar ağızları açılı halda cərgəylə düzülüb baxırdılar eləcə...

Mən bilirdim ki, nələrsə baş verəcək. Gözləmədiyim şeylər olacaq. Bunu ovcumun içi kimi bilirdim. Amma nə vaxt? Bu günmü? Sabahmı? Bax, orasını dəqiq bilmirdim. Çünki yaddaşım gah güzgü kimi açılır, hər şey aydın görünür, gah da dumanlara qərq olur, heç nəyi anlamağa gücüm çatmırdı.

Vaqonun balaca pəncərəsinə yaxın oturmuşdum. Süfrədəki nəlbəkidə dörd dənə iri alça vardı. Musa çappa stəkanlara yüz-yüz araq süzürdü. Çörəksatan tez-tez əlini əlinə sürtür, narahatlıqla "belə-belə işlər, belə-belə işlər..." deyirdi.

Musa sağlıq deyirmiş kimi, ayağa durdu, alçanın birini mənim, birini də çörəksatanın nəlbəkisinə diyirlətdi. Birini də qımışa-qımışa özü götürdü. Ancaq fikir verib gördüm ki, qımışmır, sadəcə, üzünün görkəmi belədi, əksinə, çox acıqlıdı... Barmaqları arasında alçanı oynada-oynada gah mənə, gah da çörəksatana baxırdı, sonra dərin bir ah çəkib:

– Pis günümüz belə olsun... – dedi və içdi.

Ürəyimdə dedim ki, bundan da pis gün? Bu boyda kişilər utanmaz-utanmaz dörd alçanı ortalığa qoyub litrlik arağı sümürməyə girişirsə, bu yaxşı gündü yəni?

Hər üçümüz içdik. Onlar hansısa gizli limonad sexi barədə söhbət edirdilər, mənsə susurdum, çünki maraqlanmırdım, həm də heç nə anlamırdım. Üçüncü qədəhdən sonra, deyəsən, vəziyyətim düzəldi...

Artıq içəridəkilərin nə danışdıqlarını, demək olar, eşitmirdim. Həyətin o başında, binanın bütün mərtəbələrində lalların xoru davam edirdi. Mənim açıla qalmış, eynən eləcə bomboş, soyumuş və yarıqaranlıq pəncərə yeri kimi hiss etdiyim gözlərim də onlara qoşulmuşdu... Ağır bir havanı dərd içində oxuyurdular... Mən bura niyə gəldiyimi bilmirdim. Ümumiyyətlə, hara getdiyimi, kiminlə görüşməli olduğumu, əvəzində kimə rast gəldiyimi başa düşmürdüm. Yaddaşım həmişəki kimi, elə bil, səssiz bir dəniz dalğasıydı, gəlib sahilin daşından sakitcə öpüb qayıdırdı geri. Gah hər şeyi bütün xırdalıqlarınacan xatırlayır, gah da elə unudurdum ki, olmayan kimi...

Musa kişi dişləri mırıq bir adam idi. Üzünün quruluşu eləydi ki, doğrudan da, görkəmindən əzab sızırdı. Yaxından sifətinə baxandasa adam vahimələnirdi. Qəddar üzü vardı. Ona çox baxdığımı görən çörəksatan arakəsmədə qulağıma pıçıldadı:

– Kürəyinin ortasında iki ölüm işi var ee, iyirmi dörd il türmə çəkib...

Vücudum gizildədi. Mənim burda nə itim azıb? Nə itim azıb burda? Amma qoy bir yüz də vurum... həə... bir yüz də vurum, düzələr...

Musa dördüncü alçanı bıçaqla dörd yerə böldü, tumunu ayırdı, hərəmizin nəlbəkisinə bir tikə qoydu, biri də ortadakı nəlbəkidə qaldı. Yenə arağı başına çəkməmişdən öncə mızıldandı:

– Hə, pis günümüz belə olsun kaş...

Pəncərənin o üzündə lalların xoru çox ağır bir melodiya başlamışdı. Gözlərimi ordan çəkə bilmirdim. Çünki gözlərim də onlara qoşulub, eyni şeyi oxuyurdu...

– Sabah limonadın reseptini gətir, görək nağayrırıq...

Onlar öz aralarında danışırdılar. Ancaq mənim də yadıma nəsə düşdü: Obaxeis... Bunlar obaxeisdən qorxmurlar bəs?

Resept dedilər... Reseptim də düşdü yadıma. Əlimi pencəyimin qoltuq cibinə saldım. Mənim də cibimdə nəsə olmalıdı. Amma xatırladım ki, bu, ayrı reseptdi. Bu – bloknotum, bu – açarlarım... Hə, budu... Resept də deyil ee... bu, resept deyil, həkimin yazdığı epiqrizdi. Çıxarıb oxudum: İri hərflərlə yazılmışdı: DEMENSİYA – unutqanlıq, ağıl zəifliyi... Xəstəliyim yadıma düşdü. Çörəksatan da əlimdən alıb oxudu, sonra da gülüb özümə qaytardı:

– Qoy cibinə, gərəyin olar.

Xorun səsi gəlmirdi... Dəmir çarpayıda uzanmışdım, gözlərim divardakı mıxçadan asılı köhnə kürkə zillənmişdi,... Kürkün üç düyməsindən biri qırılmışdı. Qırılmış düymənin yerindəki sap topası milçəyə oxşayırdı... Bəlkə də elə milçək idi, ancaq mənə elə görünürdü ki, guya sap topasıdı... Üfürsəydim, yəqin nəfəsim ona çatardı, uçub gedərdi... Üfürdüm. Bir, iki... bir, iki... Sonra da ixtiyarsız bağırdım:

– Bir! İki! Bir! İki!.. Qalxın ayağa! Bir! İki! Bir! İki!..

Mən niyə bağırdım axı?

Sol qulağım batdı, elə bil, köhnə bir tozsoranın uğultusu doldu qulağıma. Həm də sol gözümdən qığılcım qopdu... Məni Musa vurdu, yoxsa çörəksatan? Əvvəlcə heç nə ayırd edə bilmədim. Deyəsən, düymənin yerindəki milçək də uçub getdi. Yəqin qorxdu... Bəs xor? Xor yerindədi? Boylandım. Eşikdə alaqaranlıq idi. Buludların arasından zəif ay işığı süzülürdü.

– Niyə bağırırdın? Yuxu görürdün?

Çörəksatan idi. Siqaret yandırıb, kibritini söndürməmişdi, işığında üzümə baxırdı.

– Yox...

Üzümü ovuşdurdum. Vəziyyətim yaxşı deyildi deyəsən. Alnımı tər basmışdı. “Bəlkə də heç məni vuran olmayıb. Xəstəliyim şiddətlənib. Hə, yəqin elədi ki, var...” Cibimdən tənbəki kisəsini çıxaranacan mənimki mənə gəldi. Qəlyana tənbəki doldurub həyətə çıxdım, çörəksatan da dalımca gəldi.

– Mən ona resepti verməyəcəm, sexin də yerini deməyəcəm. İstəsən səninlə düzüb-qoşa bilərəm?

– Nəyi?

– Limonad buraxmaq məsələsini...

Ürəyim silkələndi. Limonad?.. Gizli limonad sexi açmaq?.. Deyəsən, bunun başı xarab olub... Bəlkə də məndən söz almaq istəyir, bəlkə də bu adam işverəndi... Nə bilmək olar axı... Məni bir dəftər vərəqi kimi tikə-tikə doğrayıb küləklərə sovursalar da, belə şeyə qol qoymaram. Heç hökumətlə hökumətlik eləmək olar? Tutub basarlar içəri, əlli-ayaqlı gedərəm... Limonad sexi haa! Yox bir marmelad sexi! Atamın əmisi oğlu İsrafilin başına nə oyun açdılar? O cür çəkmə ustası... Vaxt vardı tikdiyi ayaqqabıların sorağı Kremldən gəlirdi... Axırı nooldu bəs? Hamıdan gizlin evinin zirzəmisində üç dənə tikiş maşını qoyub sənətkar dostlarıyla ayaqqabı tikməyə girişdi. Gündüz məişət xidmətinin təmir köşkündə ayaqqabı yamayır, axşam işdən sonra gəlib orda işləyirdilər. Heç buna sex də demək olmazdı, gizlincə tikib alverçilərə ötürür, ən çox da Gürcüstanda baha qiymətə satdırırdılar. Nooldu bəs axırı? Çox keçmədi... çox keçmədi ki, üçünü də qandallayıb basdılar dama... Elə o gedən getdilər, onlar heç kimin torbasını tikmədilər, materialları hardan aldıqlarını demədilər... Fağırlara it əzabı vermişdilər, deyirdilər ki, dırnaqlarınacan çıxarıblar, amma yenə heç kimi satmayıblar... İstəsəydi, İsrafil o məhkəmədə deyə bilərdi ki, gizli pul qazanmağa məcbur olub. Çünki bacısı Təranə üç ildi Tibb İnstitutundan kəsilir. Ata əvəzi kimi qayğısını çəkdiyi bacısının yanında üzüqaradı. Təranə kimi savadlı bir qız eey, instituta girə bilmir!.. Ora qəbul olmaq üçün iyirmi min rüşvət istəyirlər. İyirmi min haa!... O pula Bakının göbəyində neçə dənə qəşəng ev almaq olar! Bəs İsrafil o pulu qazanmaqdan ötrü neyləməliydi? Bank yarmalıydı? Çəkmə tikirdi də, yazıq neyləyirdi ki? Hayıf... Hayıf, o cür oğlanlar hələ də yatırlar... Yox,qardaş, nə limonad sexi? Bu iş mənlik deyil, mənlik deyil qəti!..

Çörəksatan gülümsündü:

– Köhnə rəssam olduğunu bilirəm. Bilirəm yaxşı adamsan...

Qəfil elə bil məni dağladılar, diksindim:

– Dayan, dayan... Sənə kim deyib axı mən rəssamam? Məni kiminləsə dəyişik salırsan, dəyişik salırsan məni...

O, dayandı. Bir az alnını, üzünü ovuşdurub bu dəfə acı-acı güldü:

– O mücrüdəkindən xəbərin var?

– Nə mücrü? Mücrü nədi?

– Bax, budu! Bunu deyirəm də! – Sinəmə bir yumruq ilişdirdi. – Bilmirsən bunun içində nə var? Bax, bu qabırğaların altındakını deyirəm eey, ondan muğayat ol!..

Sonra da durub-durub birdən qayıtdı ki “O sən deyildin bəs mənim dükanımın divarına kömürlə şəkil çəkə-çəkə oxuyan? Yadından çıxıb? Necəydi o mahnı? Necəydi?.. Hə... Hə, yadıma düşdü:

*Alça gülü xumar-xumar açanda,*
*Arvad məni alatordan qucanda...”*

Çörəksatan oxuya-oxuya çırtma çalıb dingildəyirdi. Bəlkə də bu misraları əlli dəfə təkrar elədi. Axırda sakitcə dedim:

– Qardaş, nə alça gülü? Nə arvad? Mən heç ömrümdə evli olmuşam ki? Divar nədi? Kömürlə şəkil çəkmək nədi? Mən heç Allahın bir cücəsini də çəkə bilmirəm...

O, sinəmə bir yumruq da ilişdirdi.

– Böcəyimi uçurtmusan eey, böcəyimi! Mücrüdən muğayat ol, mücrüdən!.. Qalanı boş şeydi.

A tövbə, dediklərindən nəsə başa düşürdümsə! Hiss eləyirdim ki, getməyin vaxtı çatıb. Xudahafizləşib aradan çıxmağa bir bəhanə gəzirdim. Bu vaxt Musa deyilən o qəribə sifətin sahibi vaqonun qapısında göründü, əlində də həmin o köhnə mücrü.

– Gəl apar... gəl, zibilinə yiyə dur!..

“Pis günümüz belə olsun...” Qulağımın içi yenə uğuldadı.

Çörəksatan irəliləyib mücrünü aldı. Cəftəsinə vurulmuş balaca qıfılı əliylə yoxladı. Sonra mücrünü mənə verib astadan pıçıldadı:

– Get, gəlirəm dalınca...

Başım yüngül ağrıyırdı. Bilirdim ki, gecə yarıdan keçib. Ay batmışdı. Lalların xoru kəsilmişdi, hər yan zülmət idi. Amma mən qəribə hisslər keçirirdim. Ola bilər, kimdən ötrüsə bu gecənin qaranlığının təkcə gözləri kor deyildi, həm də qulaqları kar idi. Di gəl ki, nədənsə mənim içim işıqla doluydu. Divarın dibiylə, zülmətin içiylə gedirdim. Xeyli getmişdim, qəfil yadıma düşdü ki, axı, çörəksatan da gəlməliydi, bəs nooldu? Geri dönməyə tənbəllik etdim, daha doğrusu, istəmədim. Kişi gəlib çıxmaq bilmirdi. Divar da qurtardı... Yüngülcə üşüyürdüm. İşıqları gur yanan küçəyə gəlib çıxdım. Qulağımın küyü kəsilmişdi. Nə küçə-bacada ins-cins vardı, nə də çörəksatandan bir soraq. Bayaq qaranlığın içiylə gələndə özümü işıqlı bir gül topası kimi hiss eləyirdim. Elə bilirdim, kimsə əlini uzadıb indicə məni bu zülmət boşluqdan dərib aparacaq. Əlimdəki mücrü barədə heç nə fikirləşməmişdim, elə bil unutmuşdum onu. İndi qəfil yadıma düşdü, özümdən ixtiyarsız, qucağıma alıb bərk-bərk sinəmə sıxdım, yoluma davam elədim... Məni kimsə dərmirdi... zülmətin içindən dərib qoparan yoxuydu. Çünki artıq içim kimi çox işıqlı bir küçəyə çıxmışdım. İşığımız bir-birinə qarışmışdı...

Sinif yoldaşım Balabəygilin küçəsindən keçirdim ki, evimizə tərəf yol alım. Köhnə hamamın yanında, zibil yeşiklərinin böyründən, kirin-pasın içində qəfil bir nəfər çıxdı, məni görən kimi qollarını qaldırıb oynamağa başladı. Ağzında da “Heyvagülü” mızıldayırdı. Oynaya-oynaya üstümə gəldi ki, yəni “qoşul mənə oynayaq...” Mücrünü bir az da bərk qucaqladım... Sonra nə fikirləşdimsə, “əh, – dedim, – gül kimi gecədi, bundan yaxşı fürsət olacaq? Qoy qoşu-

lum ona, mən də oynayım...” Mücrünü üsulluca yerə qoyub, qollarımı qaldırdım, mən də başladım “Heyvagülü” mızıldayıb oynamağa... Dayanmadan, qabaq-qənşər xeyli oynadıq, axırda qucaqlaşdıq. Ondan dəhşətli dərəcədə qıcqırmış iy gəlirdi, az qala boğulurdum, amma tanımadığım bu adam məndən ötrü bu gecənin sultanıydı, kefi kök, damağı da çağ, özü də elə mənim kimi tək-tənha. Ovqatımı göylərə qaldırmışdı. Odur ki, iy vecimə gəlmirdi, onu sidq-ürəkdən bağrıma basmışdım. “Bax, deyəsən, məni bu gecədən gül kimi dərən də elə bu olacaq” – düşündüm... Handan-hana bir-birimizdən aralandıq və o, dərhal: “gəl dalımca...” – dedi, üzünü çevirib yeşiklərin arxasına sarı getdi. Oradan dolu, köhnə bir zənbillə qayıtdı, “gəl, qardaş, gəl...” deyib yola düzəldi. Mən də, az qala yiyəsinin kim olduğunu belə, unutduğum köhnə mücrü əlimdə, düşdüm onun dalınca. Artıq evimizə sarı getmək də yadımdan çıxdı.

Gecə də yol kimi bitmək bilmirdi. Hərdən öz-özümə: “hara? hara?” demək istəsəm də, susurdum. Hə, susurdum içimdə. Çünki kefim əlaydı. Tanış, işıqlı küçəylə gedirdik.

Özümü o qədər rahat hiss eləyirdim ki, heç deyiləsi deyil. Bilirdim ki, bu dəqiqə dirəklərdən süzülən lampa işığından da xoşbəxtəm. İçində nur topası kimi bir dəstə gülə bənzədiyim gecənin özündən də bəxtiyaram... Amma adını belə bilmədiyim, quzu kimi dalınca düşüb getdiyim adam məndən də bəxtəvər görünürdü...

* * *

Yol boyunca o, mənə yuxusunu danışırdı. Bir az əvvəl, yəni mən gəlib buraya çıxmamışdan qabaq, zibil yeşiklərinin arxasında yatıb, qəribə bir yuxu görübmüş. Deyir, gördüm ki, meşədə üstümə hücum çəkən nəhəng bir əntər meymunu gülləylə vurub öldürdüm. Sonra Ay doğdu. Özümü elə xoşbəxt hiss etdim ki... Başım üstə – gur işıqlı nəhəng Ay, ayaqlarım altında – ölü Əntər!.. Başladım “Heyvagülü” oynamağa. Amma nə qədər elədim, sevdiyim bu rəqs urusların “Kalinka”sı kimi alındı, əllərimi dizlərimə çırpıb oynamasaydım, düz gəlmirdi, aləm qarışmışdı bir-birinə. Birdən Əntərin dodaqları qaçdı, dedi ki, darıxma, əsl rəqqas gəlir... O sənə göstərər necə oynamaq lazımdı... Gözümü açdım, bir az keçdi, sən gəldin. Heç nə anlamadım, vallah, – nə yuxuda, nə aşkarda.

Ona baxıb-baxıb düşündüm ki, doğru deyirlər elə, heç kim bekara yerə bomja çevrilmir. Səbəblər olur, səbəblər... Gör indi o əntər sənin başına nə oyunlar açacaq. Onda biləcəksən kim kimi güllələyib öldürüb, bədbəxt...

Düzdü, başıma gələnlərdən bomja çevrilməsəm də, vəziyyətim heç də onunkundan yaxşı deyil. Elə götürək Brilyantla bağlı olub-bitənləri. Brilyant məni niyə atdı? O deyirdi ki, mənə arxayın olma. Bir gün çıxıb gedəcəm. Soruşurdum ki, bəs xoşbəxtlik? Deyirdi: “Nə xoşbəxtlik? Xoşbəxtlik nədi ki? Nədi axı xoşbəxtlik? Heç bilirsən o nədi? Bilirsən?” Karıxıb deyirdim: “Yox...” Qucaqlayıb məni ağlayırdı, gözünün yaşı canımı deşik-deşik eləyirdi. Deyirdi: “bax, qoy sənə deyim, özün başa düşəcəksən. Bax, məsələn... lap belə deyək... nə təhər deyim eey, bax belə... hə.. bax, döşünün giləsinə istiot sürtüb körpəsini süddən ayıran qəddar analar olur haa, bax, onlar kimidi xoşbəxtlik... Bildin? Hə?”

Sonralar mən də çox düşündüm, onu başqa cür təsəvvür edə bilmədim. Hə, nə qədər elədim, onu başqa cür qavraya bilmədim.

Məni özündən ayırdı... Çünki bu xoşbəxtliyi başqası yaşamalıydı, estafeti ona verməliydim. Verdim də. Körpəsini qəddarcasına süddən ayıran ana kimi xoşbəxtliyim məni özündən uzaqlaşdırdı. Gör neçə illərdi üzünə həsrətəm...

Artıq yollar pozulub, cığırlar silinib, izlər itib. Xoşbəxtlik adlanan o qidanın özü mənə iyrənc görünür indi...

– Ordan ötrü darıxmırsan?

– Hardan ötrü?

Ömrümün ən gözəl çağları Brilyantla bir damın altında keçirdiyim cəmi yüz iyirmi altı gündən ibarət olub. Ondan sonra da, əvvəl də mən ölüyə tay olmuşam bu dünyada. Məndən ötrü üz söykəyib yaşamalı məkan Brilyant adlı dünyadan ibarət olub. İndi elə bildim tanımadığım bu adam həmin dünyaya işarə vurur. Qəribə gəldi mənə. “Bu hardan bilir?” – düşündüm.

– Haranı deyirsən?

– Özün yaxşı bilirsən...

Gəlib çıxdığımız yerdə küçə fənəri o qədər gur yanırdı ki, zoomağazanın geniş pəncərələrindən düşüb içərini süd kimi işıqlandırmışdı.

Kişi dayandı. Zənbilini yerə qoyub, başıyla mənə işarə elədi ki, “yaxın gəl, bax...” Həmin mağazaydı. Qəfəslər hamısı yerindəydi. Amma quşlar yoxuydu. Kiçicik qapıları açıq olan kədərli qəfəslərə baxmaqdan başqa çarəm qalmamışdı. Çox üzülürdüm. Əhvalım tamam dəyişmişdi... Birdən-birə qəfəslər lalların xorunu başladı, nə başladı! Amma melodiya o qədər cingilitiliydi ki, mücrünü yerə qoyub əllərimi qulaqlarıma qapayası oldum. Elə bil, qəfəslərin nazik məftillərinə toxunan melodiya orada doğram-doğram olub sızlayır, üşüyür, soyuq-soyuq cingildəyir, ülgüc kimi içimi çərtirdi. Gözlərimi bərk-bərk yumdum...

Bir xeyli sonra, kimsə əllərimdən üsulluca yapışdı və onları qulaqlarımdan sakitcə araladı. Çörəksatan idi. Bomj da yanında.

– Getdik...

–...

– Gəl, gecdi...

Çarəm qalmadı. İçimin çərtilmiş yerləri elə bil qara buz bağlamışdı. Gözucu baxıb gördüm ki, qəfəslərin şaquli və bir-birinə sıx yaxın olan məftilləri arasında doğram-doğram tikələnən lal hayqırtılar pəncərənin geniş aynasına çırpılaraq ölür...

– Gəl... Vaxt keçir...

– Onlar ölür...

– Gəl... Bizdən artıqdılar yəni?..

Beş-on addım getmişdik ki, çörəksatan mənə bir bloknot, bir də kiçik bir açar topası uzatdı. “Bunlar ki mənimdi...” Yəqin vaqonda yatanda salmışam, xəbərim olmayıb. Alıb cibimə qoymamışdan qabaq bloknotu vərəqlədim. Yenə həmişəki kimi birinci səhifədə evimin ünvanı yazılmışdı, bir də böyük hərflərlə “EVƏ QAYIT!!!” kəlmələri. Ondan sonra ünvanım, öz evimizin, həkimim Sədrəddinin, bir də yer üzündə yeganə qohumum olan Həqiqət bibimin ev telefonunun nömrəsiydi.

Cibimi eşələyib bir dənə iki qəpiklik tapdım. Tindəki telefon budkasına girib öz evimin nömrəsini yığdım, çağırdı. Kim götürəcəkdi ki? Əlbəttə, heç kim. Amma handan-hana yorğun, yuxulu bir qadın səsi “alo...” dedi, telefonun dəstəyi əlimdən düşdü. “Ola bilməz!.. Ola bilməz!..” Bu, Brilyantın səsiydi! Eşiyə çıxıb yerə çökdüm. Onlar mənə yaxınlaşdı:

– Nooldu? Nooldu sənə? – Çörəksatanın səsi titrədi.

– Mən evimizə gedirəm, evimizə!

Araya ani bir sükut çökdü.

– Dəymə, qoy getsin... – Bomj kədərli-kədərli astadan mızıldandı.

Nədənsə geri qayıdıb zoomağazanın pəncərəsi önündə bir anlıq ayaq saxladım. Lallar kirimişdi. Havadan ölü iyi gəlirdi. Sürətlə aralanıb evimizə aparan küçəyə tərəf yollandım. Onlar məndən irəlidə gedirdilər, nə barədəsə

astadan danışırdılar. Çörəksatan mücrünü qucağına almışdı. Sonra bomjdan aralandı. İçində nə olduğunu hələ də bilmədiyim mücrünü gətirib təzədən mənə verdi.

– Bundan muğayat ol. – Mücrüyə bir çırtma vurdu. – Həm də, bax, bundan... – O, barmaqlarının ucuyla sinəmi yüngülcə taqqıldatdı və gülümsündü. – Görüşərik...

Key-key üzünə baxıb heç nə demədim.

“Qəfəsdəkilər qırıldı, hamısı qırıldı yəqin...”

Bir-iki addım aralanmışdılar ki, əlini bomjun çiyninə qoyub, üzünü göyə tutdu və bərkdən dedi:

– Buxur iyi gəlir eey, buxur iyi! Cənnətdi buralar... Düz demirəm?..

Əslində canımın bir topa işıqlı gülə bənzədiyi bu gecədən buxur iyi deyil, ölü iyi gəlirdi...

* * *

Yenə köhnə hamam, köhnə tas – evdə heç kim yoxuydu. Briliyant nə gəzirdi?! Bir özüm idim, bir də daş-divar. “Ax, bu mücrüdə nə ola bilər? Nə var axı bunun içində? Niyə bunu mənə verdi o?” Balaca rəzəsinə kiçicik bir qıfıl vurulmuşdu. Sındırası deyildim ki. Onu çarpayımın böyründəki köhnə dolabın üstünə qoydum. Yatağım yığılı olmurdu heç vaxt. Otağım yenə səliqəsiz, tör-töküntü içindəydi. Atamdan-anamdan qalma bu ikiotaqlı ev, bir qarış eni-uzunu olan balaca həyət, qoca əncir ağacı və ona dırmaşan tənək də baxımsızlıq üzündən yaman gündəydi. Bəs mən? Mənim halım necəydi? Əla! Hə, hər şeylə müqayisədə əlaydı halım! Bibim Həqiqət ayda cibimə səksən manat qoyur. Azdı bəyəm? Ərindən yaxşı var-yatır qalıb ona. Neyləyəcək ki? Pensiyasını alan kimi verir mənə, “bibin ölməyib, – deyir, – qorxma, kef elə!”. Oğlu Hidayət, odeey, Sibir türməsində. On beş il iş alıb. Tümendə baytar Ağadayının oğluyla yola getməyib, öldürüb, tutulub. Yazıq bibim neyləsin? Oğlu qazamatda, qızı Giləxanımsa Daşkənddə ərdə. Əri hərbçi olduğundan, Giləxanım anasına dəyməyə ildə bircə dəfə gələndə toy-bayram eləyir. Odur ki, bibim yazıq indi bircə mənimlə nəfəs alır. Mən də ki, belə...

Əynimi dəyişəndə güzgünün qabağında qabırğalarıma baxdım. Hə, arıqlamışam. Çörəksatanın sinəmə vurub: “Heç o mücrüdəkindən xəbərin var?” Mən: “Nə mücrü? Mücrü nədi?” deyincə döşümə yüngülcə bir dənə də yumruq ilişdirib: “Bunu deyirəm dəə! Bax, bu qabırğaların altındakını deyirəm eey, ondan muğayat ol!..” Mücrü... Mücrü haa! Pah! Olmaz bu sınıq-salxaq sinədən. Olmaz bu nərdivana oxşayan qabırğaların altında olanlardan! Hələ bir muğayat da olacam. İşim-gücüm qurtarıb elə... Sonra da fikirləşdim ki, “başı xarab olub bu adamın yəqin. Bəs bilmir ki, indiyə orda heç nə qalmaz?”

Dərmanımı içəndən sonra həmişə özümə gəlirdim, sonra oturub bütün günü başıma gələnləri çözürdüm. Bəzilərini isə vacib bilib mütləq dəftərçəmə qeyd eləyirdim ki, unutmayım. İndi də elə oldu. Bütün günü olanları bir-bir gözümün önündən keçirdim. Keçirib də susdum, ancaq yazdığımı da yazdım. Məscidin divarındakı yazıyla bağlı dediyimdən tutmuş, zoomağazadakı boş qəfəslərdən doğranıb-tökülən sükutun səsinəcən. Yoox, yox – lalların səsinəcən... Lalların səsi haa! Səsi də yox eey, xoru! Hə, lalların xoru!.. Pah!

Mən bu gün gördüklərimi, yaşadıqlarımı açıq-aydın gözüm önünə gətirir, bildiyim, başa düşdüyüm kimi çözürdüm. Amma iki şey mənə çox müəmmalı görünürdü. Birincisi, o iki cavan oğlan avtobusdan düşəndə, görəsən, gözlərini məndən ayırmadan niyə elə həyəcan keçirirdilər? Niyə mənə toxunmamaq üçün o cür hərəkət edirdilər? İkincisi, evimizə zəng edəndə telefonun dəstəyini

götürən o qadın kim idi? O kimin yorğun, yuxulu səsiydi elə? Bax, bunları anlaya bilmirdim...

Zoomağazada gördüklərim, sonra lalların xoru, yuxulu-yuxulu sərsəmləyəndə qulağımın dibinə dəyən zərbə (hərçənd məni heç kim vurmamışdı), içimi didibtökən qəfəslərin boşluğu məndən ötrü göydəndüşməydi. Elə çörəksatan da, Musa da, bomj da... Heyrətamiz bir gün idi! Allah bibimin canını sağ eləsin. Onun tapdığı bu dərman gün ərzində unutduqlarımı axşamlar xatırlayıb çözməyimə çox kömək edək. Amma heyif ki, gündə bir dəfə, özü də axşam içmək olar bu dərmanı... Gündüz qəbul etmək qətiyyən olmaz, qəti qadağandı!.. Onu vaxtilə bibimə məndən ötrü məsləhət görən adam qonşu rayonun yaşlı bir həkimi idi, indi rəhmətə gedib. O vaxt az müddətdən sonra məni yoxlayıb demişdi ki, "bu dərmanı daim qəbul et, sənə düşür". Demişdi ki, şansın var, sağala bilərsən. Axı, bu xəstəlik, adətən, yaşı altmışdan yuxarı olanları yaxalayır. Mənimsə yaşım heç qırx olmayıb. Özüm də inanıram tez sağalacağıma. Çünki indi bəzən gündüzlər də yaddaşım qayıdır, bəzi şeyləri detallarınacan xatırlayıram. Bu gün elə olmadımı? Oldu, əlbəttə. Öldüyü gecə atamla bağlı gördüyüm yuxu, şar, adıbatmış sərçə... dostum Fərəclə bağlı xatirələrim, əsgərlikdə başıma gələn bəzi hadisələr yerli-yataqlı yaddaşımdan boy verdi. Qısa müddətə də olsa, çox şeyi xatırladım. Sağalacam, deyəsən. Kefimin kök olması da bəlkə buna görədi.

* * *

Səhər Sədrəddin həkimdən zəng gəldi. Dəstəyi götürən kimi, xəttin o başından salamsız-kəlamsız: "Təcili görüşmək lazımdı", – dedi. Hər gün olduğu kimi, bloknotuma axşamdan qeydlər etmişdim, haralara gedəcəyimi yazmışdım. Düşündüm ki, nə qədər unutmamışam, bu görüşün də saat neçədə olacağını qeyd edim. Yazdım, altından da tarix qoydum: 16.04.1987. Qapının iç tərəfinə böyük hərflərlə yazdığım İŞIĞI SÖNDÜR! QAZI, SUYU BAĞLA! xəbərdarlığını, yola düşməzdən öncə həmişəki kimi oxuyub geri döndüm. Hər şeyi yoxlayıb arxayın-arxayın yola düzəldim.

Bu xəstəliyimin mənə bircə xeyiri o idi ki, hər şeyi unudurdum, xoş anlarım da, dərdim, sərim də yadımdan çıxırdı. Canım elə bil küləkli havada boş bir qəfəsə dönürdü. İçində nə varsa uçub gedirdi, incə barmaqlıqlarında yellər doğranırdı, eynən zoomağazadakı kimi. Amma sonradan bir də görürdün yaddaşım qəfil bərpa olurdu (lap indiki kimi), olub-bitənlər hamısı bircə-bircə ötürdü gözümün önündən, canımın içindən, ruhumdan... Belədə sanki kimsə o qəfəsi götürüb çırpırdı yerə, hər şey eləcə sona yetirdi...

Amma yenə də, bu dünya mənim üçün daha çox həmin o zoomağaza kimi bir şey idi elə. İçində bomboş qəfəs kimi hiss eləyirdim özümü. Çox vaxt da həyat külək kimi toxunurdu zərif barmaqlıqlarıma, tikələnib tökülürdü və heç kim ürək eləmirdi mənə toxunmağa.

Sədrəddin həkim köhnə kişilərdəndi. Bibimi də yaxşı tanıyır. Çünki bibimin rəhmətlik əri Şərbət dayı ilə dost olublar. O, kolxoz sədri işləyəndə, Sədrəddin həkimin kiçik qardaşını bir qəpiksiz öz yanına mühasib köməkçisi kimi işə götürüb. Yəni bu qədər yaxınlıqları varmış.

"Neyləyir məni axı? Nə deyəcək, xeyir ola?"

Biz onunla poliklinikanın yaxınlığında rastlaşdıq, elə söhbətimizi də orada ayaqüstü elədik. Portfelindən bir məktub çıxarıb mənə verdi. Əlini çiynimə qoyub gülümsədi: "Burda hər şeyi yazmışam. Oxuyarsan. Özü də yazdıqlarıma mütləq əməl eləyərsən. Ləngimə!.."

Gərək bir salnaməçi olaydı, mənimlə addım-addım gəzib başıma gələnləri qeyd eləyəydi. Mən bir daha anladım ki, haqq etdiyim ömrün yüyəni öz əlimdə

olmadığı qədər, özgədə də deyil. Bir daha anladım ki, hər şey mənimlə Yaradanım arasında cövlan eləyir. Yəni, tərəzinin üçüncü gözü yoxdu! Üçüncü gözü olmur tərəzinin, olmur!.. Və heç vaxt da ola bilməz!..

Evə qayıdınca təzədən hər şeyin yavaş-yavaş dumana büründüyünü hiss edirdim. Odur ki, həkimin nə məsləhət gördüyü yaddaşımın qaranlığına qarışmasın deyə, zərfi açıb içindəkiləri oxumağa başladım. Amma bir yandan oxuduqca o biri yandan, demək olar ki, unudurdum. Yəni dərindən götürəndə unutmurdum, sadəcə, orda yazılanlar vecsiz görünürdü mənə. Mən niyə burdan durub basa-basa getməliyəm Keçiqıran dərəsinə? Şeyx Zülfüqarın hüzurunda vaqe olmalıyam. Niyə? Guya bu zaman yaddaşım geri qayıdacaq? Normal düşünəcəm? Nə bilim, vallah...

Doğrudan da, xəstə olmaq pis şeydi. Hər bir tənha adam üçün ikiqat pisdi.

“Bəs sən burda darıxmırsan?” Bu sualı mənə kim vermişdi dünən? Yazmışammı?

Bloknotuma baxdım. Heç nə qeyd etməmişdim. Dumanlı da olsa, çörəksatanın surəti gözüm önünə gəldi... “Harda yəni? Harda darıxmalıydım ki?”

* * *

Keçiqıran dərəsi haqda çox eşitmişdim. Orada baş verənlər barədə zaman-zaman söhbətlər dolaşırdı. Hətta, Brilyant da oralıydı. Bu qayalı-qapçaqlı dərə boyunca axıb keçən Qaçgələr çayının sahilində irili-xırdalı bir xeyli kənd olduğunu bilirdim. Kəndlərin adlarını yaxşı xatırlamıram. Amma Şeyx Zülfüqarın yaşadığı kəndin Mizanlı olduğu yadımdadı. Brilyantgilin ata evlərindən çox da uzaqda deyildi. Yadıma gəlir ki, hələ altı-yeddi yaşım olanda, atam onların damını qırlayanda məni də aparmışdı. Ümumiyyətlə, məni özüylə oraya tez-tez aparardı. O zaman elə bilərdim, dünya mənimdi. Çünki kənd uşaqları mənə elə baxardılar ki, sanki kosmosdan gəlmişəm. Bu isə mənə ləzzət eləyərdi. O kəndlərdə evlərin damını atam öz qırçı dostu Baldadaş əmiylə qırlayardı. Hamı o rəhmətliklərə inanır, hörmət eləyirdi. Atama, mənə göstərilən qayğını görəndə ürəyim dağa dönürdü.

Sonradan iş elə gətirdi ki, Brilyantla yaxınlaşdım. O vaxt anaşa üstə tutulan narkoman ərinin türmədə öldürülməsindən iki il keçmişdi, yazıq qız yığışıb getmişdi dədəsi evinə. Rayon mərkəzindəki “Çiçək” restoranında aşpaz köməkçisi kimi işə düzəlmişdi. Mənsə yetim bir oğlandım. Sağlam vaxtlarım idi. İlk görüşümüzdə “səni tanıyıram” dedi. Soruşdum ki, “hardan?” Uşaq vaxtı atamla onların kəndinə gəldiyimi, neçə gün onlarda qaldığımızı mənə xatırladanda qəribə hisslər keçirdim. Brilyantın həmişə gülər, şirin bir kənd qızı olmağı düşdü yadıma. Mənim kimi o da ata-anasının bir dənəsiydi. Amma Gürcüstanda da bir ögey qardaşı olduğunu sonralar bildim. Özü çox məsum gəlirdi mənə. Ona möhkəm bağlandım.

– Çatdıq... – sürücüydü.

Pulunu verib düşdüm. Deyəsən, yol uzunu möhkəm yatmışdım, ya da elə fikrə getmişdim ki, buralara necə gəlib çıxdığımı qəti xatırlaya bilmirdim.

– Ziyaratın qəbul olsun! Bax, ora gedəcəksən...

Barmağını sağ tərəfdəki evin arxasına tuşladı və sonra da sakitcə sürüb getdi.

– Çox sağ ol...

Şeyx Zülfüqarın evinin arxasındakı çılpaq təpəliyə tərəf cığır gedirdi. Və onun xanəgahı oradaydı. Cığırla qalxdıqca dönüb kəndə sarı baxdım, demək olar ki, damı qırlı evlər qalmamışdı, hamısı ağ dəmirli, ya da şifer örtüklüydü.

Birdən-birə atam gəldi durdu gözümün önündə və nədənsə ona çox yazığım gəldi, ürəyim ağrıdı...

"O, səni sağaldacaq!"

İçimdə buna dərin inam olmasa da, zəif bir işartı kimi kiçicik bir umudum vardı.

* * *

Türbənin içindəki adamın arxası mənə sarıydı, üzünü görmək olmurdu. Mən mehrabın girişi ağzındakı daşın üstə oturmuşdum. Şeyxin amiranə səsi eşidilirdi: "Bilirsən o bədbəxt nə deyir? Deyir ki, "düzdü, canlıyam, adamam, amma məni yaradana inanmıram..." Soruşuram: "niyə?" Mızıldanır ki, "elə belə..." Deyirəm: "neçə kilosan?" Qayıdır ki, "yetmiş". Deyirəm: "gəl onda yetmiş kilo əti, sümüyü dolduraq bir kisəyə, qoyaq yolun ortasına, görək hərəkətə gəlib yeriyəcək?" Cavab verə bilmir. Deyirəm: "dost, sənə enerji verən, səni hərəkətə gətirən qüvvə var axı. Ona necə inanmaya bilərsən?" Mat-mat baxır üzümə. Adamlar qəribədi, vallah, çox qəribədi..."

Şeyx savadlı danışırdı. Lap filosof kimi çözürdü məsələni. İçəridəki adamın üzgün səsi güclə eşidilirdi:

– Sənə qurban, şeyx... Əllərimi üzüm ondan? Axı ömrümün on yeddi ilini onunla keçirmişəm...

– Yox. Boşamaq lazım deyil. Uşağınız olacaq. Mütləq!.. Gəlib bu mehrabda üç gecə yatmalısız, üç gecə! Başa düşürsən də nə deyirəm. Üç gecə!

– Bəs ilanlar... İlanlar çalmaz bizi? Eşidib-bilsə bura ilanla doludu, təpəsinə güllə də vursan gəlməz ee, vallah.

– İlanlar sizi çalmaz, qorxmayın. Canınızın dərdini çıxaran da elə bu ilanlar olacaq...

– Şeyx, sənə qurban...

– Gedə bilərsən.

...Mən özümü çarmıxa çəkilmiş hiss eləmirdim artıq, elə bilirdim, günün öləziyən yerindən indicə doğulmuşam...

Mehrabdan arıq, şümərəy bir adam çıxdı. Elə mənimlə yaşıd olardı. Qaşının üstündə göyümtül bir çapıq vardı. Görən kimi tanıdım. Mən muzeydə işləyəndə, o, yük maşını sürürdü. Dəfələrlə bəzi işlərdən ötrü müdiriyyətimiz maşın sifariş verəndə yük avtobazasından onu göndərmişdilər. Fağırın biriydi. İlk tanışlığımızda doyunca güldürmüşdü məni. Yadımdam çıxıb neçənci il idi, ovçular birliyi ilə meşə idarəsinə muzey üçün ayı sifariş etmişdik. Xəbər gəlmişdi ki, Yeddi Qardaş meşəsində nəhəng bir ayı vurublar, gedib gətirmək lazımdı. Həmin bu adamın sürdüyü QAZ-53-lə oraya gedəsi oldum. Yolda məndən soruşdu ki, "muzeydə nə işləyirsən?" Dedim: "Taksidermist". Üzümə qəribə bir tərzdə marıtdı: "Bəyəm muzeydə taksi olur?" Gülmək məni tutdu. Bununla neçənci dəfəydi ki, peşəmin nə olduğunu deyəndə adamlar çaşbaş qalırdı. Bəlkə də bu, ondan irəli gəlirdi ki, ucu-bucağı görünməyən ölkəmizdə mən nadir peşələrdən birinə yiyələnmiş tək-tük adamlardan sayılırdım... Əsgərlikdən sonra Leninqradda qalıb altı ay oxuyub öyrənmişdim bu peşəni. Muzeylər üçün vurulan heyvanların dərisini səliqəylə soyur, içini çıxarır, skeletindən ətini səbrlə sıyırıb sümükləri gül kimi təmizləyir, sonra spirtləyirdim. Skeletin üst tərəfini əzələ şəklində gipslə örtür, içini dərmanlayıb-duzlayırdım, dərini onun üzərinə keçirib bərkidir, muzeydə canlı heyvan fiquru yaradırdım. Bir sözlə, ölü heyvanı az qala canlı heykələ çevirib muzeyə yerləşdirmək mənim işim idi. Özü də təkcə öz şəhərimizdə deyil, əksər rayonların diyarşünaslıq muzeylərində müqəvvaları mən düzəldirdim. Hə, bu qəribə peşə sahiblərinə taksidermist deyirlər.

– Taksiçi... Düz tapmışam? Hə?

– Özüdü ki, var...

Görüşdük. Güldüm yenə. Niyə gəldiyimi soruşmadı. Mən də ondan heç nə xəbər almadım. Hal-əhval tutandan sonra cığırla aşağı yönəldi. Beş-altı addım atmışdı ki, geri qanrıldı. Qaşının üstündəki göyümtül çapıq bir-iki dəfə səyridi.

– Bəs burda darıxmırsan?..

Cavab verməyə macal tapmamış, içəridən on üç–on dörd yaşlı bir oğlan çıxdı, astadan qolumdan dartıb, artıq neçənci dəfədi ki, içimi ülgücləyən o əndirabadi sualdan məni xilas elədi:

– Dayı, şeyx çağırır...

...Gözüm küncdə qıvrılmış boz rəngli yoğun ilandaydı. Elə bilirdim kənara baxsam, dərhal mənə hücum eləyəcək. Çünki aramızda iki-üç addım məsafə vardı. Hiss eləyirdim ki, gözümü küncdəki ilana zilləyib susduğuma görə Şeyx narahatdı. Qorxurdum ki şeyxə sarı çevrilsəm, o ilan astadan sürünüb məni çalar. Küncə sarı da bu cür zillənib qala bilməzdim, çünki şeyxin sol qoluna dolanmış eynən o cür bir ilan da vardı ki, başını qaldırıb mənə sarı boylanırdı...

*“Şövqi-lə‘lin gəl çıxar mümkünsə candan, ey təbib!”*

“Ay Allah, bu kimin misrasıydı?.. Kimin misrasıydı... Bu sözlər mənim bu yox başıma hardan ilişib qalmışdı?”

– Bəs darıxmırsan?

Gizildədim.

– Nədən?

Artıq nə sağ tərəfimdə bir-iki addım məndən aralı oturmuş şeyxə, nə də sol tərəfimdə küncdə qıvrılıb daş kimi susmuş ilana baxırdım. Tən ortada mehrabın qarşı divarına söykənib əlində bürünc piyalə tutmuş, məni eşikdən çağıran o yeniyetməyə zilləmişdim gözümü.

– Nədənini biləcəksən... tezliklə... özüm deyəcəm sənə...

Onun nə deyib-nə deməyəcəyi məni maraqlandırmırdı. Sadəcə, gizildəyirdim. Barmaqlarımın ucunu elə bil buz dolabından çıxarmışdım – ovuşdura-ovuşdura qalmışdım. Soyuqluğu bədənimə yayılırdı. Gözümün önündən atamın qəfil öldüyü gecə yuxumda partlayan şarın aşkarda mənə bağışlandığı an keçdi. Onu mənə bağışlayanda da sevindiyimdən, beləcə, əllərimi ovuşdururdum.

Şeyx bir daha təkrarladı:

– İndi deyəcəm sənə nədənini...

“Kaş mən o şar kimi bir şey olaydım. Kaş hardansa bir sərçə uçub qonaydı üstümə... Kaş...”

Elə bu vaxt küncdəki ilan iki-üç dəfə dil çaldı, sonra neçə qat üst-üstə qıvrılıb-qalanmış kömbəsi halə-halə açıldı, üsulluca mənə sarı sürünməyə başladı. Ayağa durmaq istəmirdim. Daha doğrusu, durmaq istəsəm də, ürək eləmirdim. Şeyxin sol qoluna sarılmış ilan da başını mənə sarı uzadıb lap yaxınlığımda fısıldayırdı. Onun da səsi başımın içindəkilərə qarışmışdı. Elə bil kəllə çanağımın içində qoğul-moğul çalırdılar...

Sonra biz, heç nə olmayıbmış kimi, şeyxlə birlikdə eşiyə çıxdıq. Keçiqıran dərəsini qəribə bir uğultu bürümüşdü. Hərdən qanrılıb geriyə – mehrabın darca qapısına sarı baxırdım.

– O səsi eşidirsən?

– Hə...

– Bəs o səs səni darıxdırmır?.. -- Məndən cavab gözləmədən sol qoluna dolanmış ilanı da üsulluca açıb içəriyə buraxdı, oğlana sarı nəsə pıçıldadı. Geriyə, mənim yanıma qayıdınca qəfil burnunu göyə tutub eynən çörəksatan kimi havanı qoxuladı. Elə bildim indicə deyəcək: “Buxur iyi verir eey, buxur

iyi!.. Cənnətdi buralar!" Amma yox. Göy üzünə baxıb-baxıb, qəfildən qolumdan yapışdı, "bəri gəl..." - deyib məni nəzakətlə türbənin arxasına sarı çəkdi. Orada qocaman bir akasiya ağacı vardı. Gövdəsinə iki at bağlanmışdı, ikisinin də başına saman torbası keçirilmişdi. İkisi də başını tərpədə-tərpədə öz işindəydi, yeyib kövşək vururdular. Biz atlara yaxınlaşanda yeniyetmə oğlan özünü yetirdi, atların başından kisələri çıxardı, ağacdan açaraq birinin yüyənini mənə verdi, o birininkini şeyxə. Hələ ki baş verənləri film kimi izləyirdim.

"Hara gedirik, ey təbib?.."

– Sədrəddin doxturun verdiyi kağız hanı?

Bura nədən ötrü gəldiyim yadıma düşdü. Tez əlimi qoltuq cibimə salıb, zərfi çıxardım.

Oxudu və çox soyuqqanlılıqla özümə qaytardı. Bircə onu bildim ki, dodaqları altında sakitcə bir: "demensiya..." pıçıldadı və başını buladı.

– Min ata.

At sürməyi xoşlayırdım. İşimlə əlaqədar ucqar dağ kəndlərinə gedəndə çox minmişdim ata. Ancaq içimdə bir yıxılmaq qorxusu da vardı.

İkimiz də süvar olduq və mən onun arxasınca yola düzəldim.

Biz atları aramla sürüb yamacla yuxarılara qalxırdıq. Havadan qurumuş otların qoxusu gəlirdi. Yastanın belinə çathaçatdaydıq. O üzə aşsaydıq, Keçiqıran dərəsinin meşəlikləri başlamalıydı. Burdan baxanda hər yan əzəmətli görünürdü, hər yan gözəl görünürdü, xüsusilə də gəlib yetişdiyimiz Nuh yaylağı deyilən bu yerin misli yoxuydu, adam istəyirdi atı mahmızlayıb uzaqdakı başı qarlı dağlara sarı çapıb getsin.

Yastanın belinə çatanda qarşı tərəfdə iki alaçıq göründü. Adam-insan isə gözə dəymirdi. Alaçığın yanındakı gərməşov ağacının dibində nəsə bir qaraltı dəbərdiyini gördüm. Bu, qoca bir çoban itiydi. Başını qaldırıb uzandığı yerdən bizə sarı bir-iki ağız hürdü.

– Sən qırx gün, bax, gördüyün o birinci alaçıqda yaşayacaqsan...

İxtiyarsız yüyəni çəkdim. Bədənimdən yenə o tanış gizilti keçdi...

Bu dəfə o, üzümə ani nəzər salıb könülsüz gülümsündü:

– Qorxma... Özüm də yanında olacam... Darıxmayacaqsan...

...İçəridən başına ağ təsək qoymuş, bəyaz tuman-köynəkdə qəribə bir qoca çıxdı. Girəcəyə söykədiyi əl ağacını götürüb bir-iki addım bizə sarı gəldi, bir əlini ağ saqqalına çəkdi:

– Gəlin... gəlin... xoş gəlmisiz... harda qaldız?.. nə qədər gözləmək olar, balam?..

Şeyx Zülfüqar ucadan:

– Xoş gördük, Nuhbala dayı, xoş gördük, – dedi.

Alaçıqda kimsə yox idi. İçəri girincə turş çaxırın iyi məni vurdu. Süfrədə bir dolça vardı, yəqin ki, çaxırla doluydu. Yanına da üç dənə çappa qədəh qoyulmuşdu... Qıcıqlandım. Elə bil, alaçığın üstündə mələklər uçuşurdu, qanad səsləri gəlirdi. Qoca, deyəsən, atları cidarlayırdı, alaçıqda şeyxlə ikimiz idik. Şeyxə baxdım. O, gülümsündü... Əlini uzadıb süfrənin qırağındakı "VEF" tranzistorunu işə salmaq istədi, amma nəsə fikrindən daşındı. Eşikdə atlar kişnədi, it bir ağız hürdü, qocanın səsi gəldi:

– Gəl... Elə indicə yetiriblər özlərini...

Yerdə oturmaqla heç aram yoxuydu, bardaş qurmaqdan zəhləm gedirdi, çünki bacarmırdım, əziyyət çəkirdim. İndi də mütəkkəyə dirsəklənib ayaqlarımı uzatmışdım yan tərəfə, rahatlıq tapa bilmirdim. Bircə təsəllim vardı ki, Sədrəddin həkim məni pis yerə göndərməz. Elə şeyxin özü də dindardan çox, alimə oxşayırdı, qətiyyən deməzdin ki, bu adam pir üstə əyləşən fırıldaqçılar zümrəsindəndi. Geyim-keçimi də elə mənimki kimiydi. Bir sözlə, o, əbalı-təsəkli

şeyxlərdən deyildi. Elə bizi qarşılayan ağsaqqal da pis adama oxşamırdı. Sağalacağıma umud eləməyə dəyərdi.

Bəs o gələn kim idi?

Çarşablı olsa da gözlərindən tanıdım – gələn Brilyant idi...

* * *

"Heç bilirsən xoşbəxtlik nədir?.." Çaxırı birinci mənim qədəhimə süzdü. Heç gözünün ucuyla da üzümə baxmadı. Ortada çaxırdan başqa sac əppəyi və motal pendiri də vardı. "Heç bilirsən nədir o?.." Şeyx Zülfüqarla iki qədəh içdik. Qoca da içdi. O, büt kimi bardaş qurub oturmuşdu. Dinib-danışmırdı. Briliyant bir daha alaçığa girib hərəmizə bir qədəh də çaxır süzdü. Sonra başım dumanlandı. Alaçığın üstündən yenə qanad səsləri eşidilməyə başladı. Gözlərim qapandı və özümdən ixtiyarsız başımı mütəkkəyə endirib oradaca uzandım.

Alaçığın o üzündə qanad səslərinin arasından iki nəfərin pıçıltısı eşidilirdi.

– Sədrəddin həkimin dediyi o Rusyətdə ölüb gələn oğlan budu?

– Deyəsən.

– Heç bizimkilərə oxşamır.

– Bəlkə qayıdacaq? Nə bilirsən. Şeyx elə-belə addım atmaz...

"Rusyətdə ölüb gələn..." Bu sözlər mənə o qədər bəsit gəldi ki, elə bil dedilər: "futbol oynayanda ayağı burxulan oğlan budu?" Rusyətdə içkili halda başıma dəyən butulka zərbəsi, yıxılmağım və mərmər döşəməyə leş kimi düşməyim gəldi gözüm önünə... Ancaq təfərrüatını dumanlı xatırlayıram... Təcrübə seminarına getmişdim Leninqrada. Zərbəni kim vurdu? Əlbəttə, Marat. Əlbəttə, Svetaya görə. Niyə yıxıldım? Sonra nələr baş verdi? Bilmirəm... bilmirəm... xatırlamıram... Xatırlasam da dumanlı... çox dumanlı...

Qanad səsləri isə səngimək bilmirdi. Qoca şeyxə asta-asta dedi:

– Bunun adı nədi?

– İshaq.

Bir xeyli keçəndən sonra qayıdıb rişxəndlə dedi:

– Yox, bir... ispanaq!..

Gülüşdülər. Mənim də dodağım qaçdı. Bu ifadə mənə tanış idi. Hələ uşaq vaxtı, məktəbli olanda, Aydəmir müəllimin məni uşaqların içində aşağılayan sözü düşdü yadıma. O, sinfimizə yeni təyin olunmuşdu, hamını bir-bir qaldırıb adını soruşurdu. Məni də durğuzub dedi: "Adın nədi?" – "İshaq." Qayıtdı ki: – "Nə? İspanaq?.." Uşaqlar uğundu gülməkdən. Çox pərt oldum. Elə o vaxtdan adım gözümdən düşüb. İndi də bu qoca. Bu da elə Aydəmir müəllim kimi söz oynadır, deyəsən.

– Bunun işi uzun çəkər, görəsən?

– Yox, məncə, şeyx. O, öyrəşəcək, alışacaq. Ən azından, Briliyant burdadı, yoluna qoyacaq. Bir də ki, ortada Sədrəddin həkim kimi əjdahamız var... Bu sözü qoyum, o sözə keçim, şeyx, yadına gəlir, yazıq Sədrəddin həkimi maşın necə xurd-xəşil eləmişdi bazarın sfetaforunda? Qırmızıda keçmişdi, deyəsən, cənnətməkan... Amma ömrü boyu qulaqkəsən olub haa, özü də qəddarından! Hə, bax o, hər şeyi yoluna qoyacaq, özü deyib. Narahat olmağa dəyməz.

Şeyx qımışdı:

– Yəni, üzü qibləyə...

Qoca güldü:

– Hə, elədi ki var.

* * *

...Diyarşünaslıq muzeyinin zirzəmisi geniş və daş döşəməlidir. Meyitlərin yeddisi də döşəməyə uzadılmışdı. Əyninə ağ xalat geymiş Brilyant içində dəri soymaq, gips vurmaq üçün iş alətlərim olan çamadanı əlində tutub durmuşdu. Eşikdə yağış yağırdı. Brilyantdan ağızucu soruşdum:

– Hə, hansından başlayaq?

– Qocadan... Nuhbala kişidən...

– Bəlkə Şeyx Zülfüqardan başlayaq?

– Özün bil...

Mənim üçün fərqi yoxuydu. Çamadanı əlindən alıb, alətləri bir-bir yoxladım. Hamısı saz vəziyyətdəydi. Müşəmbə döşlüyümü bağladım, əlcəklərimi geydim. Əslində, mən hamısından qabaq çörəksatanın meyitini soymaq istəyirdim. Birinci onun skeletini təmizləyib, əzələlərini gipsdən düzəldib dərisini üstünə çəkmək keçirdi ürəyimdən... Bir də bilmək istəyirdim ki, görüm onun öz "mücrüsündə", qabırğalarının altında bir şey var, ya yox. Bir də, "Heyvagülü" oynayan o mehriban bomjun cəsədi üzərində işləməyə meylim güclüydü, onun üzündəki təbəssümü necə var eləcə qorumaq keçirdi içimdən...

– Biriş, bunların üzü qibləyədi?

– Mən nə bilim...

Gülmək məni tutdu. Onun əlindən yapışıb lal-dinməz geniş zirzəminin baş tərəfindəki balaca otağa apardım. Köhnə divanın yanında çiyinlərindən yapışdım:

– Biriş, gör neçə nəfəri dikəldib ayaq üstə qoyacağıq... Gəl bunu qeyd eləyək...

O, güldü. Əvvəlcə xəfif-xəfif, sonra bir az səsini qaldırdı, sonra xalatını soyuna-soyuna möhkəm şaqqanaq çəkdi. Əvvəlcə divan daş kimi gəldi mənə, sonra zirzəminin divarları yavaş-yavaş yellənməyə başladı, getdikcə sürətlə yırğalandı... Hə, bir də divarlar yelləndikcə, divan get-gedə daşlaşdıqca, eşikdən qoca itin mırıltısı gəlirdi. Artıq Brilyantın gülüşü, qəhqəhəsi səngiyib, səngiyib, ah-ufa çevrilmişdi, bitib-tükənmək bilmirdi...

– Bəsdi, İshaq, bəsdi... İndicə oyanacaqlar, qurtar...

...Alaçıqdan çıxıb, çiskin yağışın altında qəlyanıma güc gəlmişdim. "Bu nəydi belə, ilahi... Görəsən, duyuq düşən olmadı ki..." Yuxuydu bu?... Belə yuxu olar? İçinə zibil belə yuxunun! Alaçıqda yalqız qalıb, qoca Nuhbala kişinin və şeyxin dediklərini eləməliydim. Brilyant niyə gəldi girdi böyrümə?..

*"Şövqi-lə'lin gəl çıxar mümkünsə candan, ey təbib!"*

Gəl, gəl, ey təbib, gəl görüm sən kimsən, nəçisən...

– İçəri gir, islanarsan. – Brilyant astadan məni səslədi.

Heç nə olmayıbmış kimi, alaçığa girdim.

* * *

Hər şey mənə bura gəldiyimin on dördüncü günündə agah oldu. Şeyx Zülfüqarla ağsaqqal Nuhbalanın ikilikdə etdikləri söhbəti eşidəndən sonra elə bil ayılan kimi oldum. Onlar hər gün məni alaçıqlardan xeyli aşağıda dərəyə yaxın yerdəki bulaqdan su gətirməyə göndərirdilər. Hər dəfə də bir cür otun yarpağını ovcuma basıb, dərədə rast gəlsəm, yığıb gətirməyimi tapşırırdılar. Təbii ki, bəzən tapırdım, bəzən yox. Bir gün də yenidən güyümü çiynimə aşırıb məni o yarpızlı, lilparlı bulağa göndərdilər. Orasını da deyim ki, Briliyant getməyə qorxurdu. Onu qınamıram, çünki bulaq uzaqdaydı, dərə isə həm qaranlıq, həm də vahiməliydi. Mən hər qayıdanda onları xısın-xısın söhbətləşən görürdüm. Axırıncı dəfə səsləri aləmi götürmüşdü. Alaçığa

girməmiş, istər-istəməz dayanıb dinləməli oldum. Eşitdiklərimi unutmayım deyə, tez-tələsik qaldığım alaçığa qayıdıb qeyd dəftərimə yazdım. Dəhşət!.. Mən nə bədbəxt insanammış, ilahi!.. Sən demə, bunlar – başda Sədrəddin həkim olmaqla – məndən ötrü oyun qurublar... Hamısı da bibimin əlində olan var-yatırını aldadıb almaqdan ötrü.

Gecə yarısı mənimlə bir alaçıqda yatan Brilyantın boğazından yapışdım.

– Düzünü deməsən, işin pis olacaq!..

Hər şeyi biddə-biddə danışdı. Bu adamların “julikliyini” açıb-tökdü. Mənimlə fələyin qapısında it olmağa da hazır olduğunu bildirdi.

Və biz gecə ikən “aradan çıxdıq”...

* * *

...Bomj yalvarırdı ki, yuxusundan sürüyüb gətirdiyi əntəri soyum, sümüklərini təmizləyib üstünü gipslə örtüm, təzədən dərisini duzlayıb üstünə geyindirim və ona əbədi, heç vaxt xarab olmaz bir həyat bəxş edim: heykəl düzəldim! Mənsə “Yox!..” deyib durmuşdum. “Müqəvvadan heykəl olmaz!” deyirdim. Tərs damarım tutmuşdu. Bu işə əl bulamaq istəmirdim. O, gülümsünə-gülümsünə qarşıma gəldi, üzümə baxıb-baxıb qəfildən “Hey-vagülü”nü mızıldadı və qollarını qaldırıb yavaş-yavaş süzməyə başladı. Deyəsən, bu yolla könlümü almaq istəyirdi. Brilyant dayanıb gözləyirdi, əlində alətlər çantası, bir himə bənd idi. Çörəksatan da divara söykənib gülürdü. Bomj oynamağa başladı, nə başladı! Dünya vecinə deyildi, hər şeyi unutmuşdu, deyəsən, Əntər də yadından çıxmışdı... Ona yaxınlaşıb qucaqladım. Qəfil məni gic bir ağlamaq tutdu! Özümü saxlaya bilmirdim. Bomju buraxıb, əntərin yanında diz üstə çökdüm. Əlimin işarəsiylə Brilyantdan alətlər çantasını istədim. Açıb başladım işləməyə. Onu yarıyacan ağlaya-ağlaya soydum. Sonra gözümün yaşını tez-tez yaxınlaşıb çirkli əlləriylə silən Bomj mənə yalvardı ki, ağlamayım. Çörəksatanla Brilyant da bir tərəfdən məni dilə tutdular... İşin şirin yerində Brilyant əyilib qulağıma bərkdən dedi:

– Bəsdi, İshaq, bəsdi, ayıl...

Hirsimdən meymunun qabırğalarına bir-iki yumruq ilişdirib sındırdım. Gördüm əntərin də gözündən yaş süzülür, təzədən başladım ağlamağa. Amma görürdüm ki, ağlasa da meymunun üzü gülür...

– Bəsdi, ayıl. Çörək almaq lazımdı, İshaq...

Gözümü açan kimi ilk eşitdiyim bu oldu:

– Ürəyim partdıyır axı burda. Sən bəs darıxmırsan?..

Yenə bu gic sual silkələdi məni. Amma öz evimdəydim. Brilyant da yanımda. Dərk eləyirdim ki, bu, xoşbəxtlikdir. Bundan böyük xoşbəxtlik ola bilməz. Artıq olub-bitənləri xatırlaya bilmirdim. Nələr baş verdiyi də, yaddaşımın açıla qalmış qapısından şütüyən kimi, elə bil uçuruma tökülürdü və mən onları xilas etmək sarıdan çox aciz idim, əlimdən heç nə gəlmirdi. Ruhumda, beynimdə həmişə yenilik vardı, çünki köhnəliklər ölüb yerə necə girirdisə, əlim çatmırdı, yerini təzə-təzə, isti-isti yaşadıqlarım tuturdu...

O, süfrəyə çay gətirib, pəncərədən həyətə baxırdı. Özü də diqqətlə baxırdı.

– Nə var orda ki? – soruşdum.

Üzünü çevirmədən:

– İshaq, gəl, bax sən Allah, gəl gör nə qədər sərçə balası var eey, əncirin budaqlarında. Elə bil, bura sərçələrin uşaq baxçasıdı... Ata sərçələr, ana sərçələr elə də çox deyil, beş-altı dənədi. Bax, onlar uçuşur, balalar da dallarıyca süzür, deyəsən, uçmaq öyrədirlər onlara. Balalarsa tezcənə geri dönürlər, yıxılacaqlarından qorxurlar elə bil. Təzədən cikkildəşə-cikkildəşə

tökülüşürlər budaqların üstə... Canın haqqı, mən belə şey görməmişəm ömrümdə, İshaq...

Sərçənin nəinki özünü görəndə, hətta adını eşidəndə valım çevrilirdi. Yaddaşımdan nələr itib getsə də, beynimin qaya-qapçağına bu murdar quşun adını elə bil tişəylə həkk etmişdilər, həmişə ordaydı və məlum səbəbə görə, həmişə də məndə nifrət, qıcıq oyadırdı.

Baxdım, Brilyant deyənlərə haqq qazandırdım. Doğrudan da, elə bil, həyətim sərçələrin uşaq bağçasıydı, budaqlar doluydu barmaq boyda bozumtul, cubbulu sərçələrlə. Cikkilti səsi aləmi başına götürmüşdü. Amma içi suyla dolu partlamalı şarım, bir də... yuxumda can üstə olan atam yoxuydu, təbii, yoxuydu...

– Çörəyimiz yoxdu haa...

– İndi gedirəm almağa...

Onu öpdüm. Bu, "nə yaxşı ki, varsan, Biriş. Bir də səni heç yana buraxan deyiləm" – demək idi. Üzümə baxıb-baxıb, gülümsündü, bununla da: "onsuz da day qovsan da heç yerə gedən deyiləm, İsi..." pıçıldadı sanki.

Sonra pulqabımı axtaranda qeyd dəftərçəmi gördüm. Açıb xeyli vərəqlədim. Mənə ən çox maraqlı gələn Şeyx Zülfüqar idi. Sözsüz ki, onu tanıyırdım. Amma dumanlı gəlirdi ağlıma. "Bu kimdi axı?" Ürəyimdən keçirdiyim bu sualı Brilyanta verdim.

– Cəddinə qurban olum onun... Rəhmətlik dədəm deyərdi ki, onun babaları ağır övliya olub, ondan qorxun!.. Özü julikin biridi. Ömrü boyu milisə, raykomdakılara-zada camaatı satmaqla məşğul olub, onlarla əlbir işləyib. Görmürdün fırıldaqçı köpək Nuhbala kişiylə necə cani-dildən əlləşirdilər? Əlləşirdilər ki, bibini ora gətirib soysunlar. İkicə gün də qalsaydıq, məni göndərəcəkdilər bibinin dalınca. Planları eləydi... Onların ikisi də bu işdə Sədrəddin həkimlə əlbir idi...

– Bəs sən niyə gəlmişdin ora?

Brilyant udqundu. Sonra gözlərini yerə dikib astadan pıçıldadı:

– Nuhbala kişidən eşidəndə ki, bir nəfər xəstə gətirəcəklər oğlunun direktor işlədiyi sovxozun yaylağına, əvvəlcə qanmadım... Anlamadım xəstə hara, köhnə başkəsən Nuhbala hara, yaylaq hara, müalicə hara? Yolda rastıma çıxdı, dedi ki, kömək eləsəm, yaxşı pul verəcək. O, mənə xısınladı ki, müalicəsinə çalışacaqları xəstə cavan bir kişidi, onunla bir alaçıqda qalmalıyam. Sağaltsalar, məni o adama ərə verə biləcəklərini də bildirdi. Əvvəlcə imtina elədim. Sonra, İshaq, imam haqqı, eşidəndə ki, bu xəstə sənsən, gözüm kəlləmə çıxdı, razılıq verdim. Elə o gün Zülfüqar kəndə adam göndərib məni babasının günbəzinə çağırtdırdı, ilanları da dörd bir yanında fısıldayırdı. Məni hədələyib qorxutdu. Tapşırdı ki, bu barədə kiməsə bir kəlmə desən, özündən küs!.. Çox qorxdum, İshaq, çox... Öldüm lap ayaq üstə...

Brilyantın gözləri yaşardı. Məni qucaqladı:

– Sən canın, bağışla məni, İshaq! Onların yanında özümü elə aparmalıydım ki, guya səni tanımıram heç, buna məni məcbur edirdilər. Sənə hər şərab süzəndə də stəkanına bir yuxu həbi atmalıydım gizlicə, özləri tapşırmışdı. Amma çox vaxt yalandan onlara deyirdim ki, guya atdım, amma atmırdım, elə şey eləmirdim, qorxurdum ki, birdən sənə bir şey olar...

* * *

Həmin günün axşamı heç olmayan kimi, qəfil bibim bizə gəldi. Brilyantı yanımda görüb bilmədi neyləsin. Gah qaş-qabağını tökdü, gah yalandan gülümsədi, axırda da məni həyətə çağırıb bir qırağa çəkdi:

– Bu nə oyundu, İshaq? Qardaşımın ocağında bu nə oyundu çıxarırsan?

Bilmədim nə deyim, necə başa salım. Axırda elə bil mənə vəhy gəldi, özümdən ixtiyarsız qeyd dəftərimi çıxardım, ora göz yetirib, dilim dolaşa-dolaşa başıma gələnləri danışmağa başladım. Bibim rəng verib, rəng aldı, neçə dəfə gözünün yaşını sel kimi axıtdı. Sədrəddin həkimin, Şeyx Zülfüqarın, Nuhbala kişinin qurduqları oyuna qarşı Brilyantla necə qarşılıq verdiyimizi eşidəndə qəribə hallar keçirdi. Sonra astadan dedi:

– Sədrəddin həkimə bax eey, nə əclaf adammış, nə alçaq adammış binamus!.. Belə şey olar? Tfu!

Sonra da:

– O qızı çağır gəlsin, dedi, – çağır gəlsin o qızı, de ki, qorxmasın...

Brilyantı çağırdım, aşağı endi. Əncir ağacının altındakı köhnə skamyada üçümüz də yanaşı oturduq. Bibim onunla xeyli söhbət elədi. Axırda da dedi:

– Bu gün gedib Molla Əmirağaya kəbininizi kəsdirəcəm. Həh... Nə deyirsiz?

Brilyantla bir-birimizə baxdıq. Nə deyə bilərdik ki?

Bibim ağlamsındı, qucaqlayıb məni də, onu da öpdü. Dəftərə qeydlər elədiyimi görüb əlini çiynimə qoydu:

– Darıxma, İshaq, dünyanın o başında da olsa, səni sağaltdıracam. Azarın mənə gəlsin elə... Amma mənə demədin də, demədin səni Rusyətdə vuran o köpək oğlu kim idi? Deyə bilmədin heç cür...

Yenə ağlamsındı:

– Pul sarıdan qəti nigaran olma, qəti haa. İstəyirsiz lap toy vurdurum sizinçün...

İkimiz də birdən:

– Yox... – dedik.

Onlar skamyadan qalxıb evə keçdilər, mən qəlyanımı doldurub “beşqarışlıq” həyətimizdə bir xeyli o baş-bu başa var-gəl elədim. Bibimin dəfnində qəbiristanlığa qədər tabutu çiynimdə apardığımı, yorulsam da məni əvəzləmək istəyənləri yaxına buraxmadığımı, mafanın dəmir tutacağını çiynimdən heç kimə ötürmədiyimi xatırladım. Qaraqançır olmuş çiynimin ağrısı uzun müddət məni tərk etməmişdi onda...

Bunları nəyin gücünə xatırladığımı bilmirəm. Amma təsadüf də olsa, xatırladım. Ardınca da kövrəlirdim ki, belə də iş olar? Axı necə dözmək olar ki, günlərin birində evlənəsən, amma doğmaca damının altında adi bir şampan da partlatmayasan...

Və çıxdım həyətdən...

* * *

Ay doğmuşdu. Nələr baş verdiyini unutmuşdum. Dərmanım qurtardığına görə, yadımdan çıxanları bir daha geriyə qaytara bilmirdim. Yalıquyruğu düyün-düyün hörülmüş at kimi, çox narahat hiss eləyirdim özümü. Brilyantgilə – Mizanlı kəndinə gedirdik. Maşında məndən pıçıltıyla soruşdu:

– Darıxmırsan?

– Qətiyyən!..

Artıq bu suala öyrəncəliydim, eşidəndə qabaqkılar kimi gizildəmirdim. O, köhnə mücrünü qucağıma qoyub, gülümsündü:

– Rusyətdə ölüb gələn...

– Hə... – Dedim. – Yoxsa sənin kimi?

– Elə onu de... Ömründə bir dəfə Bakıya gedəsən, özü də xalan qızının toyuna. Səadət sarayının pilləkənindən kəlləmayallaq yıxılasan, boynun qırıla,

elə ordaca qalasan... Özün cəhənnəm, yazıq qızın da toyunu çevirəsən yasa. Belə şey olar?

Əvvəlcə gülüşdük, sonra xeyli susduq. Çünki heç birimiz heç nə anlamırdıq, heç nə...

– Amma bir şey deyim, İsi... Sənə canım qurban... Heç vaxt məndən müqəvva düzəltməyi, heykəl qayırmağı ağlından keçirmə haa, yaxşı? Qorxuram, çox qorxuram...

Bilirdim niyə qorxur. Çünki, bütün müqəvvaları onun gözləri önündə düzəltmişdim. Artıq o bilirdi ki, hansı çəkidə olan heyvanın, ya insanın, qabırğasının eni nə endə, uzunu nə uzundadı. O bilirdi ki, cavanın ətini sümükdən ayırmaq asan olur, yoxsa, qocanın. Mən içalatları çıxaranda, o, qəti dözə bilmirdi, gözünü yumub sızıldayırdı. "Səni dabanından asacaqlar ee, dabanından, İsi..." – deyirdi. Mənsə gülürdüm. Göz vurub soruşurdum ki, "de görüm əntərin neçə qabırğası var?" O da həyəcan içində yüngül gülümsünürdü: "ikisini sındırmısan, qalıb on dənəsi..." Amma görürdüm ki, titrəyir... Durub onu qucaqlayırdım.

...Mən ölüyə qarğış eləyən eşitmişdim, amma görməmişdim. Brilyantın vardan-yoxdan Tirməgül adında yaşı səksəndən yuxarı bir nənəsi vardı, evə yetişən kimi, əvvəlcə dirilərimizi söydü, sonra da bütün ölülərimizə qarğış elədi, axırda işin nə yerdə olduğunu bilib, burnunu çəkə-çəkə qımışdı:

– Həyətdəki ları xoruzu tut, qoy adaxlın kəssin. Axşama çığırtma bişirərik...

Tirməgül nənənin evi kəndin lap kənarındaydı. Brilyant boş qalmış ata evlərinin qapısına kilid vurub gəlib burda yaşayırdı. Tirməgül nənənin həyəti ilk baxışdan çox yöndəmsiz idi. Uzunsov və darısqal olan bu həyətin qaratikan kolundan olan çəpəri dərədən axan sısqa çaya qədər uzanırdı. Əla bostan yeriydi amma. Quyusu da vardı. Brilyant xoruzu hərləyib-fırlayıb yordu, nəhayət, küncə qısnayıb, bir zülümlə tutdu. Elə sevinə-sevinə gətirdi ki, deyərdin, zalım qızı bir çamadan pul tapıb.

– İshaq, gör nağayrırsan...

Xoruzu əlindən alıb həyətə buraxdım:

– Lazım deyil, Biriş...

Tirməgül nənə örpəyinin ətəyilə gözlərini sildi.

* * *

...Bir aydan yuxarıydı, kənddəydik. Bu fikrin hardan ağlıma gəldiyini bilmirəm, kəndə gələndən Brilyantın beynini xarab eləmişdim ki, bu dünyada yaşayan insanlar hamısı yadplanetlidi. Bəs, bu dünya bizimki deyil, bəs, biz bu dünyaya hansısa planetdən gəlmişik, bəs, biz bu dünyaya gəlməyik eey, gəlmə! Heç bir heyvanla, bitkiylə yola getmirik, hamısına ağalıq eləyirik. Amma unuduruq ki, bu dünya heç də bizimki deyil, bütün canlılara məxsusdu, məsələn, qarışqalara, balıqlara, göyərçinlərə, böcəklərə, itlərə, pişiklərə, çaqqallara, tülkülərə, qurdlara, qurbağalara və sair.

Yazıq Biriş əlimdən lap giriftar olmuşdu. Dinləyib, dinləyib, mağmıncasına susurdu, bəzən də lap axırda bircə kəlmə deyirdi ki, "bəs onda nağayraq?" Mən də mat-mat baxırdım üzünə: "heç nə, – deyirdim, – heç nə... Nağayra bilərik ki?.."

Bu məsələni dəftərçəmə qeyd etdiyimə görə hərdən özümü yamanlayırdım. Düşünürdüm ki, olmazdımı bunu unudam getsin? Hər dəfə baxıram, o dəqiqə yadıma düşür axı. Yazıq qızın da başını xarab eləyirəm. İddia etdiyim məsələdə nə qədər haqlı olduğumu dəqiq bilmirəm axı. Brilyantınsa nədən başı çıxır ki, belə şeyləri də anlaya.

Bura yığışandan həyət-bacanı qaydasına salmağa başlamışdıq. Bostan əkmək istəyirdik. Səliqə-sahman yaradıb xeyli iş görmüşdük. Bir dəfə nahara yaxın daxmadan çıxırdıq ki, əkinə baş çəkək, qapının ağzında rezin çəkmələri ayağıma geyəndə, Brilyant qəfil əyilib üzümə baxdı və müəmmalı şəkildə qımışdı.

– Noolub? – soruşdum.

– Noolacaq, – dedi, – hələ bir soruşursan da... Dədə olacaqsan eey tezliklə, dədə. Gəlmələrin biri də artacaq. Hi-hi...

Elə bildim məni ildırım vurdu. Kandara çökdüm. “Allah!... Allah! Allah!” pıçıldadım. Sözün sonunun “ah”la bitdiyini çoxdan unutsam da, qəfil yenə yadıma düşdü, bu dəfə özümdən ixtiyarsız “ya rəbbim, ya rəbbim, ya rəbbim...” kəlmələri təkrar-təkrar qopdu dilimdən...

Çəkmələri ayağımdan çıxardım. Amma niyə? – bilmirəm. Ayaqyalın dayandım onun önündə. Titrədim, titrədim, çökdüm yerə. “Nooldu?” soruşdu. Əlimi yellədim ki, “heç nə...”

Qoca xartut ağacının başına qonmuş sığırçınları elə bil birinci dəfə görürdüm. Hamısı ala sığırçın idi. Şux, tərtəmiz, gözoxşayan... Tox-tox çığırışırdılar. Bu quşları ona görə sevirdim ki, heç vaxt görkəmlərindən aclıq yağmırdı. “Eşitdiz də, eşitdiz də, mən ata olacam, ata!..” Hamısı ağız-ağıza verib bir-iki kərə bərkdən çığırdı, elə bil, bununla da mənə dedilər ki, “eşitdik!..” və sonra iki ağız da çığırdılar, bu isə, deyəsən, “təbrik edirik!..” demək idi, ardınca da sevincək-sevincək, çığırışa-çığırışa uçub getdilər. Deyəsən, mən də dallarınca qopdum yerimdən... Bu uçuşda sürət hər şeyi həll edir, hər şeyi... Gözümü açıb-yumunca özümü çörəksatanın, bomjun, əntərin müqəvvasının çiyninə qonmuş gördüm. Qulaqlarına cikkildəyib onları sevincimlə müjdələdim. Sonra bibimin pəncərəsi önündən keçən teleqraf telinə qondum, çığırdıqca çığırdım, elə bil, “bibi, muştuluğumu ver, – deyirdim, – hə, muştuluğumu ver, qardaşının ocağı boş qalmayacaq...”

– Aaz, a yanmış, buna nağayırmısan, özünə gələ bilmir... – Bu, Tirməgül nənənin səsiydi. Yaş dəsmalı alnıma söykəmişdi, boynumu-boğazımı buz kimi soyuq suyla isladır, “can, can..” deyə-deyə əlimi-ayağımı ovuşdururdu... Brilyant başıma sığal çəkə-çəkə için-için ağlayırdı...

Kimsə çəpərin o üzündə dayanıb bizə baxırdı. Onu qəfil gördüm. Üzü gülürdü. Özü də elə bil tanıyırdım onu. Əl eləyib səssizcə məni çağırdı. Başımı yellədim ki, “yox”. Amma əliylə “gəl” deyib inad göstərdi. Deyəsən, nə Brilyant, nə də Tirməgül nənə onu görürdü. Təzədən bir dəstə ala sığırçın çığırışa-çığırışa qoca xartut ağacının budaqlarına doluşdu, elə bil mənə deyirdilər ki, “get o adamla...”

– Sən mənimlə getməlisən, qardaş.

– Sən kimsən?

– Mən -- heç kim.

– Necə yəni?

– Neynirsən mənim kimliyimi? Səni çağırırlar, gözləyirlər səni. Hər şey yaxşı olacaq, xeyirliyədi hər şey, qorxma.

Dərənin qarşı tərəfindəki sumax kollarına bürünmüş daşlı yamacda iki nəfər üzü bizə sarı oturub baxırdı. Əlli–əlli beş yaşlarında qəribə görkəmləri olan adamlar idi. Cığır burula-burula düz onların yanına sarı gedirdi. O, qabaqda, mən də dalınca, hələ üzüaşağı – dərənin dibindən axan sısqa çaya enirdik. “Neynirsən mənim kimliyimi? Səni çağırırlar, gözləyirlər səni...” Qəfil: “Bəlkə elə onlardı?” fikirləşdim. Quzu kimi boynumu burub gedirdim bu adamın arxasınca. Çox qəribədi ki, elə bil, Brilyant bilmədi mənim getdiyimi. Heç Tirməgül nənənin də tükü tərpənmədi. Amma axır vaxtlatr Tirməgül nənədən

anamın qoxusu gəlirdi burnuma, anamın unudulmaz qoxusu... Məsum, dilsiz-ağızsız, fağır anamın. Necə zülm-zillətlə yaşadı, necə əzablar çəkdi yazıq anam... Elə bil, şüşə bir balona salınmış kəpənək idi, ağzını bağlayıb, gətirib qoymuşdular güllü bir çəmənliyə... Yəni yazın ətri vurmadı onu heç vaxt, o, qalın şüşənin arxasından güllərin şəklinə baxdı ömrü boyu... Baxdı, baxdı... amma onların qoxusunu, təmasını duymadı ölənəcən, duymadı... O ağzıbağlı şüşə balondakı kəpənək kimi baxa-baxa qaldı elə adına dünya deyilən bu divanəxanaya... Axırda da yazın, baharın yox eey, mənim dərdim öldürdü onu, mənim...

...– Niyə ağlayırsan?

Diksinən kimi oldum:

– Heç...

Özümdən xəbərim yoxuydu. Demə, anamı düşündükcə gözlərimdən yaş süzülürmüş. Bir qədər üz-gözümü ovuşdurub, özümü ələ aldım. Qeyd dəftərçəmi evdə qoymuşdum deyəsən. Geri qayıtmaq istədim, amma gec idi. Dərənin o üzünə addamışdıq. Üzüyuxarı qalxırdıq. Başımı qaldırıb göy üzünə baxdım. Qürub sarıda yalqız bir bulud vardı, ağappaq bir bulud. Çox qəribə görünüşü vardı. Qabağımca yeriyən adam dazbaş idi və bulud onun peysəri şəklindəydi. İstədim özümü saxlayam, alınmadı və güldüm. O, geri qanrılmadan astadan pıçıldadı:

– Bilirəm nəyə gülürsən. Gülməyini sonraya saxla... Hələ hər şey qabaqdadı, darıxma...

Yenə gizildədim.

O iki nəfərə yetişdik. Biri nur içindəydi, üzünə baxmaq olmurdu. Büt kimi səssizcə oturmuşdu. O biri cüvəllağıya oxşayırdı. Gözləri oyur-oyur oynayırdı. Elə bil harasa tələsirdi, çox narahat idi. Çatan kimi, nə sənə, nə mənə, soruşdu:

– Hansımızla gedirsən?

Quruyub qaldım. Hara, kiminlə, niyə, nədən ötrü getməli olduğumu bilmirdim. Handan-hana dilimi sürüdüm:

– Bilmirəm...

Elə o anda sığırçın dəstəsi başımız üstdən çığırışa-çığırışa keçdi.

– Hə, aydındır. Sən mənlik deyilsən. Ağsaqqalnan gedəcəksən...

O, məni buraya gətirən adamla dərənin içiylə bir ayrı səmtə çıxıb getdi.

Nurani kişi üzümə gülümsəyə-gülümsəyə qalmışdı. Əliylə oturmağımı işarə elədi. Yerə sərdiyi köhnə “Kommunist” qəzetinin üstünə böyründəki bazar kulokunun içindən pendir-çörək çıxarıb qoydu: “Başla...” – dedi.

Özümdən ixtiyarsız içimdə bir haray qopdu: “Bəs Brilyant? Bəs Tirməgül nənə?” Qoca elə bil içimin səsini eşitdi.

– Mücrünü niyə elə qucağında tutmusan? Yerə qoy, rahatcana çörəyini ye...

Mücrü... Onu haçan götürmüşəm? Nə təhər oldu ki... Nə təhər oldu axı mən bunu götürdüm? Lap ürəyim üzüldü. Düşündüm ki, bu müəmmalar nə vaxt sona çatacaq görəsən?

Sığırçın dəstəsi bu dəfə lap alçaqdan çığırışa-çığırışa dərəyə enib bir az aralıdakı kolluğa doluşdu. Qoca da başını qaldırıb onlara baxdı. Üzünə bir hüzn çökdü.

Sonra baş verənlərin xırdalıqlarını xatırlaya bilmirəm. Bircə onu bilirəm ki, məni xilas edəcəyini dedi. Sonra ayrı şeylər də söylədi. Əvvəlcə çörəyin, pendirin qalıqlarını kisəyə qoydu, cibindən kibrit çıxarıb “Kommunist” qəzetini yandırdı və onu yana-yana dərəyə buraxdı... Ardınca da balaca bir açarla mücrünü açmaq istəməsi hələ də gözümün önündədi. Açar qıfıla düşmədikdə üz-gözü yaman günə qaldı, elə bil titrədi. Nurani sifəti əyüş-üyüş oldu, dilxor-

dilxor mənə baxıb başını buladı və açarı dərəyə tulladı. Sonra yığışıb oradan üzü yuxarıya getdik. Bir qayanın yanına çatıb üstünə çıxdıq. Azman bir qayaydı. Oradan baxanda, elə bil bütün Keçiqıran dərəsinə Aydan-ulduzdan baxırdıq, kənd-kəsəklər uşaq oyuncaqları kimi dərə boyunca tökülüb qalmışdı. Baxanda elə bilirdin, dərənin hər iki tərəfində dağlar evləri qarşılarındakı yal-yamaca səpələyib nəyisə gözləyir, sanki hansısa oyuna başlamaqdan ötrü bir himə bənddilər. Qəribəydi ki, ala sığırçınların çığırışan dəstələri də çox-çox aşağılarda uçuşur, səsləri sanki quyunun dibindən gəlirdi.

Oturub dincimizi alırdıq. Məni evdən bu qocanın görüşünə gətirən bayaqkı kişinin peysərinə oxşayan bulud gəlib durmuşdu başımızın üstündə. Bəlkə də heç o deyildi. Məndə də gic-gic bənzətmələr olur eey, vallah. Adama deyərlər ki, heç bulud da peysərə oxşayar?

– Yuxarı çox baxma, gözün qaralar. – O, əlini çiynimə qoydu, üzü işıqlandı, vücudu tamam nura bələndi. Heyrətimdən içimi çəkdim. O isə, bu dəfə üzünü yana çevirdi, astadan pıçıldadı: – Mücrünü bəri ver.

“Niyə? Nədən ötrü? Nə üçün?” Bu sualları içimdən keçirməyə macal da tapmadım heç, bir də gördüm mücrünü qoymuşam onun dizləri üstünə. Əlimdən tutdu. Əlləri buz kimiydi. Ağlayana oxşamırdı, amma gözlərinin içi yaşla doluydu. İşıqqarışıq göz yaşı... Hər gözündə bir gilə... Cəmi bircə gilə...

– Mən sabah öləcəm... Sonuncu günümdü... Heykəlimi burda düzəldərsən, bax, burdaca qoyarsan... Bax, burdaca... elə bu qayanın üstündəcə... Üzüm gündoğana sarı olsun, unutma, gündoğana sarı... Mən sənin doğulacaq oğlunun keçmişiyəm, hə, doğulacaq oğlunun keçmişi!.. Başa düşürsən dediklərimi? Hə?!..

Sonra o, yaşına yaraşmayan bir cəldliklə yerdən qəfil sıçrayıb ayağa durdu, elə o anda da mücrünü qapıb, var gücüylə qayadan tulladı. Elə bil, tulladığı heç taxtadan düzəlmə mücrü deyildi. Elə bil, şüşədən idi, aşağılarda necə çilik-çilik olub töküldüsə, səsi qəfil necə qalxdısa yuxarı – doldu qulaqlarıma...

* * *

Sığırçınlar çığırışır... Özlərini görməsəm də səslərini eşidirəm. Brilyantın soyuq barmaqları saçlarıma sığal çəkir. O, nəsə deyir... Nəsə deyir və tez məndən aralanır. Sonra öyüdüyünü eşidirəm. Ardınca da Tirməgül nənə “caan... caan...” deyə-deyə onun arxasınca eşiyə çıxır. Yatağım buz kimidi, buz kimi. Ayağa dururam:

– Noolub?

Brilyant yarıgülümsər, yarıağlamsınırmış kimi, güzgünü göstərir!

–Nə günahı vardı onun?.. O cür çırpıb sındırdın...

Heç nə başa düşə bilmədim:

– Mən?.. Niyə?.. Necə oldu ki, sındırdım axı? Nəynən sındırdım, daşnan?

– Nə bilim niyə? Nənəmin cehizlik güzgüsüydü... Mücrüylə çırpıb sındırdın...

Başım çöyrükmüşdü deyəsən. Nəyə görəsə, onun əllərindən öpmək istəyirdim. Üzümə baxdıqca başını bulayırdı. Tirməgül nənə eşikdə deyinirdi:

– Kökünüz kəsilsin elə!.. Qırılasınız elə!..

– Nənə kimə qarğış eləyir?

– Heç kimə... Sığırçınlara... Çərdəymişlər xartutdan əl çəkmirlər neçə gündü...Yuyub-sərdiyimiz paltarların üstünü batırıb-bulayırlar hər gün...

“Həə... Sığırçınlar... Sığırçınlar... Ala sığırçınlar...”

Həyətə çıxdıq. Onlar çığırışırdı... Sonra da elə çığırışa-çığırışa qəfildən perikib dərəyə sarı uçdular...

– Gözünün içindəki nədi, İsi?

– Nədi ki?

– Elə bil, gözlərində çilçırağa oxşayan nəsə var... Gözünün ağı da başqa rəngdədi... Çəhrayıdı...

“Hə... Çəhrayı tavanda əndrəbadi çilçıraq... Xatırlayıram... Xatırlayıram... Xatırlayıram... Gör, hansı qapını təpiklədin eey, Biriş, gör, hansı qapını təpiklədin...”

* * *

...Marat məni hər gün işdən sonra Leninqradın kiçik rayonlarından biri olan Vasiliostrovskidəki “Meduza” kafesində gözləyirdi. Ucuzxanaydı o xaraba... Oturub rahatca içirdik, qəpik-quruş xərcimiz çıxırdı. O, həmin rayonda adanı ikiyə bölən kiçik Smolenka çayının kənarında birotaqlı evdə kirayə qalırdı. Mənim kimi hər gün Diyarşünaslıq Muzeyinin nəzdində fəaliyyət göstərən kursda taksidermistlik dərsi alırdı. Biz artıq ikinci ay idi ki, təkmilləşmə kursundaydıq. Dostlaşmışdıq. Marat da mənimlə birgə bu peşəni sevə-sevə öyrənənlərdən biriydi, özü də Dağıstandan gəlmişdi, dəlisov bir dərbəndli balasıydı, atası bizimkilərdən idi, anası – qumuq. Svetlana adında bir sevgilisi vardı. Onunla axır vaxtlar arası dəydiyindən, möhkəm içirdi. İçəndən sonra da başlayırdı dəli kimi daşı-divarı yumruqlamağa. Ancaq bir xasiyyəti də vardı ki, ayılandan sonra üzr istəyirdi, peşmanlığını bildirirdi. Hiss eləyirdim ki, o, Svetanı mənə də qısqanır. Bəzi şeylər var ki, deyiləsi deyil və o, deyəsən, duyuq düşmüşdü. Bir dəfə də “Meduza” kafesində Maratı gözləyəndə Sveta hardansa peyda oldu, kefi göynən gedirdi. Sarmaşdı boynuma, əl çəkmədi, oturdu dizimin üstündə. Bir də onu gördüm, Marat qapıda dayanıb ləngər vurur. Adətən, içəndə balacalanan gözləri bu dəfə alacalanmışdı. Dodaqları altında qəzəblə nəsə üyüdüb-tökürdü. Əlində də butulka – araq butulkası... Bir an sonra Sveta dizlərimin üstündən düşüb balaca bir quş kimi uçub getdi. Sən demə, həmin butulka mənim başımda çilik-çilik olacaqmış, kəllə sümüyüm də xıncım-xıncım... Heç “ana!” deməyə də macal tapmayacağammış... Demə, arxası üstə qalmağımla gözlərim çəhrayı rəngli tavana zillənəcəkmiş... Gözlərim oradan asılmış əndrəbadi bir çilçırağın şəklini çəkəcəkmiş içinə... Çəkə-çəkə də sönəcəkmiş...

O şəkil hələ də gözlərimdədi, deyəsən. Brilyantın da gördüyü elə həmin çilçıraq, həmin tavandı yəqin...

– Sən gözlərimi elə bil birinci dəfədi görürsən... Fikir vermə, Biriş, yaxşısı budur, mənə de görüm, dünəndən yataqdayam, ya bu gündən?

– Dünəndən...

Az qaldı məni ildırım vura. Tövşüməyə başladım. “Nə təhər oldu xatırladım axı? Nə təhər oldu xatırladım o hadisəni?..”

– Nooldu, İsi?

Özümü güclə toparladım:

– Hazırlaş, getməliyik, Biriş...

Yolda o mənə heç nə demirdi. Mücrünü də götürmüşdü, alətlər olan çamadanı da. Qəlyanımı axtardım. Yoxuydu. İçində Zərnəva tənbəkisi olan balaca kisə də həmçinin.

– Hara gedirik, İshaq?

– İndi deyəcəm...

Doğrudan da hara gedirdik? Hə... yadıma düşdü:

– Qoca bu gün ölməliydi axı, Biriş, ölməliydi axı. Hə, bu gün ölməliydi... Onun müqəvvasını düzəltməliyəm... Balamızın keçmişi qoca...

– Dəli olmusan? Nə balamızın keçmişi? Qoca kimdi?

İndi gəl buna xırdala görüm, necə xırdalayırsan? İndi mən buna nə deyim görəsən?

– Biriş, sən canın, incitmə məni, gəl...

## *İkinci bölüm. Sevgi də qızılca kimidir...*

... Talada uzandığımız yerdəncə gözümüzü zilləyib bir az aralıda leş didən yalqız qarğanın hərəkətlərinə baxırdıq. Qanlı leş qırığını didişdirib yeyirdi, caynaqları, al qırmızı rəngli parıltılı mahmızları, zil qara tükləri zərrə də bulaşmırdı.

Yaxınlıqda sınan, qırılan budaqların şaqqıltısı eşidiləndə, qarğa hürkdü, leşi tərk edib qarıldaya-qarıldaya uçub getdi, biz diksindik. Dedim, yəqin Maratdı. Nəsə ürəyimə gəldi, üşənən kimi oldum. Sveta qalxıb yola düzəldi. Deyəsən, bərk qorxmuşdu. Üst-başını çırpmaq belə, yadından çıxmışdı, kürəyinə, saçlarına qurumuş xəzəl qırıntıları yapışmışdı... Amma gedəndə geri qanrılıb yüngülcə gülümsədi: yəni "məni başa düş".

Sıx pöhrəliyin içindən gələn şaqqıltı kəsildi. Daha heç bir səs-səmir eşidilmədi. Qəribə bir vəziyyətə düşmüşdüm: meşənin nəm sükutuna başımı qoyub nələr baş verəcəyini fikirləşməyə belə canımda təpərim yoxuydu. İçi sümürülmüş, ağzına tıxac vurulmuş gərəksiz bir kuzəydim elə bil, düşüb böyrü üstə qalmışdım. Bir təpik vuran olsaydı, çiliklənəcəkdim, içimin boşluğu çıxacaqdı üzə...

Altımıza sərdiyimiz "Pravda" qəzeti cırıq-cırıq olmuşdu. Şüşənin dibində azacıq araq qaldığını gördüm, gözümü yumub başıma çəkdim, bir qədər toxtadım. Sonra da durar-tutmaz, əlimi atıb boş araq şüşəsini götürməyimlə bir az aralıdakı yoğun ağcaqayının dibindəki daşa çırpdım, çilik-çilik oldu. Ardınca nə baş versə yaxşıdı? Yekə bir it pöhrəliyin arxasından çıxıb hürə-hürə üstümə cumdu, mənim ayağa qalxmağıma belə imkan vermədi, basmarlayıb altına aldı, bədənimin ətini neçə yerdən gəmirib qopardı...

– Çığırma!.. Çığırma, İsi! Ayıl görüm! Ayılsana!..

Brilyant idi. Üz-gözümün tərini silirdi.

Bir ağacın altında oturmuşduq. Deyəsən, yol yorduğuna görə çökmüşdük bura. Burda da ki... O bədheybət yuxu yaxalamışdı məni. Əslində, bu, yuxu deyildi, olmuş hadisənin mənim kimi ümidi Allaha qalmış huşsuz bir xəstənin xəyalında bütün xırdalığınacan canlanmasıydı. Hə, indi qalxıb gedəsiyik doğulası övladımın keçmişinin müqəvvasını düzəltməyə. Qocanın özü demişkən, heykəlini qoymağa. Brilyanta yazığım gəlirdi. Nə desəm, etiraz eləmirdi: "öl" desəm, ölürdü, "qal" desəm, qalırdı. O boyda alətlər çantasını qucaqlayıb mürgüləyirdi məzlumcasına... Belə götürəndə, hara getdiyimizi də heç dəqiq bilmirdi...

Dəftərimdə nələr yazmışdım onunla bağlı, nələr yazmışdım, ilahi, nələr, nələr... Öz danışdıqlarıydı hamısı. Deməli, raykomun ikinci katibi Haqverdi Gərəkməzovun kefinin saz vaxtına düşür, harda görür, bilmirəm, necə olursa, Brilyantı gözü tutur. Deyir, yox eey, evlidi, subaydı, bilmirəm, lap bircə günlüyə, bir gecəliyə də olsa, o, mənim olmalıdı... Başlayır altdan-altdan iş görməyə. Neyləyirsə, xeyri olmur, Brilyant onu yaxına buraxmır. Restoranın müdiri Xasməmməd kişiyə hər yerdən təzyiq göstərirlər. O rəhmətlik də, tərs adam olduğundan, bu oyuna getmir, nə qızı yola gətirməyə çalışır, nə də onu işdən

çıxardır. Odur ki, yazığın pişiyini ağaca dırmaşdırırlar. Yoxlama yoxlama dalınca gəlir restorana. Axırda Brilyant çarəsiz qalır, bilmir neyləsin, gedib ərizəsini yazıb işdən çıxır. İaşə idarəsinin müdiri Qədir müəllim əmək kitabçasını qollayanda deyir ki, "Sən bir də belə yerlərdə işləmə. Qayıt kəndinizdə inəydən, camışdan saxla. Sənin üzündən nə boyda zibilə düşdüyümü bir Allah bilir. Sən nə biləsən? Yatsan, heç yuxuna da girməz..." Çox qəribədi, o vurqırğının içində könlünün quşu mənə qonmuşdu zalım qızının.

* * *

...Bu kəndin əhalisi yaraşıqlıdı. Xüsusilə də qızları. Əksəriyyəti zərif görkəmli, Burla xatun kimi boy-buxunlu, bəyaz üzlü, mavi gözlüdü. Sadəcə, ömürləri boyu üzüm bağlarında çalışmaq onları yaman günə qoyub, bircə Birişdən başqa... Onunsa elə bil bu dünyadan çoxdan ipi qopub, heç kimə uyuşmur, heç kimlə oturub-durmur. Ata-anasından qalma iki inək, beş qoyun, bir xeyli toyuq-cücə, həyətdə əkdiyi kartof-soğan, tərəvəz onun yaşamağa davam etmək üçün yeganə çıxış yoludu, bir də Tirməgül nənənin pensiyası, bir də mən... Məndən də ki, nə ölüyə hay var, nə diriyə pay. Ancaq hərdən qürurlanıram ki, məni də bir sevən tapılarmış bu yer üzündə, şükür!

Bir yerdə də belə bir qeyd vardı: Kəndin bir-iki dəlisov cavanı məni Brilyanta görə qısqanıb döyməsinlər deyə, Tirməgül nənə hər tərəfə kəbinli olmağımız barədə xəbər yayırdı.

Dəftəri bir qırağa qoyub yenə Allah kəlamının sonunun "ah"la qurtarmasını xatırlayıram və əhvalım yenidən dəyişir.

Aşağılara baxdım. İrili-xırdalı kənd evləri kibrit qutularına, uşaq oyuncaqlarına bənzəyirdi, səpələnmişdi aşağılara, dörd tərəflərində də üzümlüklər, üzümlüklər... bir neçə də şərab zavodu...

– Çaxır içmək istəyirəm, Biriş, çaxır... Çörəksatan hardadı?

– Çaxır nədi, ay İsi, çaxır nədi? Nə Çörəksatan? Çörəksatan hardan düşdü yadına? Biz qocanın meyitinin yanına qalxmalıyıq, qocanın. Elə bil, day mən də onu tanıyıram artıq, mən də tanıyıram, elə bil, mən də... Gedək... gedək...

Köhnə, boyağı tökülmüş qızılı rəngli balaca mücrünü bu dəfə mən götürmüşdüm. Amma niyə? Bilmirdim. Qəfildən onu üzüm təni qaldırıb qoxuladım. Buxur iyi gəlirdi.

– Buxur iyi gəlir eey, Biriş, buxur iyi gəlir...

O güldü:

– İshaq, gah çaxır deyirsən, gah buxur... İşin-gücün qurtarıb deyəsən... Gəl... Qarnımdakı içimi təpikləyir, "tez ol" deyir, "tələs" deyir... Gəl, off, gəl.. nəfəs aldın, bəsdi ta...

* * *

...Hə, Sveta, belə götürəndə, hirslənməyimə baxma, bilirəm ki, sənin kimi elə mən də xəyanətkaram. İkimiz də Marata xəyanət elədik, bədəlini mən çəkdim. Elə sən də çəkdin... elə o özü də... O indi həbsxana qapısını təpikləyir yəqin. Sən taleyinin qapısını. Mənsə... De görüm, adına tabut deyilən, içinə pərçimləndiyim bu yeşiyi necə təpikləyə bilərəm? Təpikləməyə dəyərmi? Onsuz da gec-tez çürüyəcək... Böcəklərlə başlayacaq qiyamətim, böcəklərlə... gözlərimin ağına, qarasına, qulaqlarıma, dodaqlarıma, burnuma daraşan böcəklərlə, bir də gözlərimdən ötrü güdükdə duran yeddiqardaş ilanlarla... həm də bitib-tükənmək bilməyən atlı qarışqalarla... Qiyamətim çox da uzun çək-

məyəcək, uzun çəkməyəcək, bilirəm... çətini canımın əti sümürülüb qurtaranacandı... Sonra yüz taksidermist gələ, heç nə tapmaz sümüklərimin üstə çəkməyə. Kimsə, hansı başdanxarabsa skeletimə kostyum geydirib, başıma motal papaq qoyub məni pyedestala çıxarsa, ağaran dişlərim göz qamaşdıracaq eey, göz qamaşdıracaq... Hə, Sveta, bir də unutma ki, o bədbəxt Marat dəlisovun biridir, beyni çönsə, səni mütləq oyannığ eləyəcək, mütləq... Bunu qanımla duyuram eey, qanımla...

* * *

– Ayaqlarım sözümə baxmır, İsi. Bu, nə hündür qayadı, bu nə uzun yoldu? Bizim kənddən baxanda buralar görünmür heç. Məni haralara gətirib çıxardın?

Aşağılarda ala sığırçınların böyük dəstəsi çığırışa-çığırışa bir neçə dəfə belədən-belə ötüb keçdi. Elə bil o səslər, bir avtomobilin şüşətəmizləyəni kimi, yaddaşımı sağa-sola sildi...

– Gəl, Biriş, az qalmışıq, gəl.

* * *

...Qoca ölmüşdü. Başı üstündəki hava yırtılmışdı, göyün dibi görünürdü. Gözləri ora dirənib qalmışdı. İki damla dumduru göz yaşı bəbəklərində göl kimi durmuşdu. Dodaqlarının qıraqlarından süzülüb qurumuş ağız suyunun ağappaq köpüyünə iri-iri at qarışqaları daraşmışdı.

Brilyant belə məqamda neyləmək lazım olduğunu artıq məndən yaxşı bilirdi. Çantadan cücü əleyhinə maye dərmanı çıxarıb püskürəcini basdı, meyitin hər tərəfinə çilədi. Qarışqalar bir göz qırpımında yoxa çıxdı. Birdən əl-qolum yanıma düşdü, aləm başıma fırlandı.

– Biriş, bəs gips? Gipsimiz yoxdu axı. Neyləyəcəyik, hə?

O da quruyub qaldı. Handan-hana dilləndi:

– Yuxulu-yuxulu, tələs-tələslə durub gələndə belə də olmalıydı.

Aşağılarda sığırçınlar çığırışdı...

– Səni burda meyitlə baş-başa qoyub gedə bilmərəm. Amma sən də tək getsən, yarıda bilməyəcəksən, Biriş, neyləyək? Mən ona söz vermişdim axı. Bax, burda – bu qayanın üstündə onun müqəvvasını qoyacam, heykəlini ucaldacam demişdim. İndi bəs necə olsun?..

Brilyant çiyinlərini çəkib durdu. Qayanın o üzündən boğuq bir uğultu eşidildi. Elə bil, mürəbbə bişirilən bir mətbəxin içində yolu azıb pəncərə şüşəsinə çırpılaraq eşiyə çıxmaq istəyən bir bölük arının vızıltısına mikrofon tutub səsgücləndiriciyə ötürmüşdülər... On – on beş addım gedib qayanın arxasına keçmək olardı, bilmək olardı ki, həqiqətdə bu, nə səsdi belə. Amma sıldırım çox təhlükəliydi. Dəftərçəmə bu qeydləri sürətlə edib, çantadakı böyük mələfəni çıxardım, qocanın nur içində əbədi susmuş üzünə örtdüm. Amma yanılmamışdım, bir anda həmin yerdən topa-topa xeyli bal arısı uçub gəldi, qocanın nəşi üstündə, bizim həndəvərimizdə vızıldaşmağa başladı. Qəribədir ki, arılar uçub gəldikcə gəlir, bir ucdan artıb çoxalırdılar. Brilyant da mənim kimi çökmüşdü yerə, tərpənməyə qorxurdu.

– Həh... indi neyləyək?..

– Gözləyək, Biriş, gözləyək.

Aradan xeyli vaxt keçsə də, arılar bir ucdan uçub gəlməkdə davam edirdi. Qapqara duman kimi bürümüşdülər həndəvərimizi. Qocanın nəşinin üstündə daha çox fırlanırdılar. Yaxşı ki bizi sancmırdılar. Ancaq inanırdım ki, tərpənsək, sovxaşacaqlar canımıza. Çünki buranın sahibi onlar idi, biz yox.

– Biriş, sənə deyəndə ki, biz gəlməyik, inanmırdın. Görürsən, onların ölkəsinə girib, səltənətinə yaxınlaşanda neyləyirlər?.. Çalış, tərpənmə haa, yoxsa işimiz fırıq olacaq...

Ondan səs çıxmadı. Necə oturub büzüşmüşdüsə, eləcə də qalmışdı. Qorxudanmı, ya darıxdığındanmı, ağlayırdı. O, hardasa məndən iki-üç metr aralıda oturmuşdu. Deyirdim indi mən neyləyim, onu necə qucaqlayım, necə oxşayım ki, səsini kəssin. Bu vaxt üsulluca gözlərimi qaldırıb göy üzünə baxdım. Qapqara buludlar başımız üstündə sıxlaşmağa, artıb çoxalmağa başlamışdı. Çox keçməmiş, göyün üzü tamamilə örtüldü. Arılar yavaş-yavaş azalırdı deyəsən, hə, azalırdı. Bu gedişlə yarım saata, ya bir saata tamamilə çəkilib getməliydilər. Amma gözlədiyimdən də tez yox oldular. Bəlkə də axırıncı arının uçub buradan aralanmağından heç on saniyə keçməmişdi ki, göy üzündə dəhşətli bir gurultu qopdu və ildırım çaxdı, ardınca da bir-bir, amma iri-iri yağış damcıları çilənməyə başladı.

– Hara, hara qısılaq indi? Leysan bizi tutsa, məhv olacağıq.

– Toxta, Biriş, dayan, bir şey fikirləşək, görək, nağayrırıq...

– Mən toxtayıram eey, göy üzü toxtamır axı...

Meyiti leysanın altında qoyub, gəldiyimiz cığırla üzüaşağı tərpəndik. Təxminən əlli metr aşağıda kolluq görünürdü, aralarında da baş-başa vermiş bir neçə yosma ardıc ağacı vardı. Özümüzü dibinə verib daldalana bilərdik. Yağış isə, gözlədiyimiz kimi artana oxşamırdı, hətta iri, ılıq damlalar getdikcə seyrəlir, səngiyirdi.

Sıldırımın düz qırağında bitmiş bu ardıcların altı bir alaçıq kimiydi, olduqca rahat, yağış tutmayan, qupquru bir yer idi bura, heç leysanda da islanası deyildi. Yağış hələ təkəm-seyrək atırdı. Orada xeyli oturduq, sonra Mən Brilyantın dizinə başımı qoyub mürgülədim...

* * *

...Bir dəfə kefli vaxtlarımızdan birində Sveta mənə də, Marata da demişdi ki, “siz mənim ayaqqabımın tərliyi də deyilsiniz heç...” Mən susub fikirləşsəm də ki, “niyə?”, Marat yumruğunu stola çırpmışdı, izah istəmişdi. Siqaretdən dərin-dərin qullab vurub, istehzalı gülüşlə tüstünü kafenin əndrəbadi çilçırağına sarı üfürən Sveta: “gedin fikirləşin...” demişdi. Söhbət ciddiləşsə də, o, xırdalamamışdı bunu. “Bəsdirin, – demişdi, – qurtardıq bu söhbəti…” Kirayədə qaldığımız mənzildə gecənin bir vaxtı Marat məni yuxudan oyadıb hirsli-hirsli dedi: “Sveta it qızı bilirsən niyə dedi o sözü? Bilirsən niyə dedi? Hardan biləsən ki? Tupoy şeysən... Ona görə dedi ki, ay bədbəxt, çünki biz rus deyilik! O, bizə, biz qaralara ikinci sort adam kimi baxır həmişə... Məni sevsə də, onu sevsəm də, bu, belədir, hə, belədir, qanındadır it qızının!.. Dəfələrlə sezdirib mənə, dəfələrlə... Belə getsə, öldürəcəm onu, öldürəcəm, çıxacam axırına!..”

Amma iş elə gətirdi ki, Marat onu yox, məni vurdu, mənim axırıma çıxdı. Özü də onun üstündə, özü demişkən, o it qızına görə... Belə götürəndə, Sveta kimi quşbeyinlər azdır yəni? Düzü-dünya doludu o cür düşünən adamlarla. Başları xarabdı da, vallah, xarabdı başları. Gicdilər, bir sözlə. Lap elə götürək Maratı. Maratlar azdır yəni?.. Neylədiyini bilməyən Maratlar... Sveta xislətli qancıqların ağuşunun istisinə aldanıb “qardaş” dediyi, “qanımız birdi haa...” dediyi adamı “uf” demədən oyanlıq eləyən Maratlar... Özü də bilmədən o cür qancıqların ayaqqabısına heç tərlik olmağa yaramayan Maratlar... Dərindən düşünəndə, bizim Svetaya, svetakimilərə olan sevgimiz onun bizə olan nifrətinin yanında heç əzgil də deyil. Amma biz bunu qanmırıq, qanmaq

iqtidarında deyilik. Çünki beynimizin içindəki qeyrət damarımız çoxdan qırılıb, çoxdan... Bir taksidermist kimi deyirəm bunu, təmizlədiyim kəllə sümüklərinin içində o damara hələ rast gəlməmişəm... Heyvanlardan fərqli, adamlarda yoxdu o damar, ən azından, mənə rast gəlməyib.

Dayan!.. dayan!.. Görəsən, bu gün təmizləyib müqəvvasını düzəldəcəyim o sirri-xuda qocanın beynində həmin damara rast gələcəmmi? Hə? Vallah, maraqlıdı... Görəsən o pak ağsaqqalda varmı o damar? Baxarıq...

Brilyantın yorğun səsi məni özümə qaytardı və əlimi qeyd dəftərçəmə atdım.

– Hava açılıb. Gedəkmi gips dalınca?

– Gedək, hə.

* * *

Biz gips dalınca rayona gedib qayıdanacan gün günorta yerinə çatdı. Qocanın meyiti isə qoyub getdiyimiz yerdə yoxuydu. Quruyub qalmışdıq... Daha arılar uğultuyla deyil, təkəmseyrək uçuşurdu. Brilyantın üzünə baxa bilmirdim, gözləri kəlləsinə çıxmışdı...

Yenidən ardıcların altına qayıtdıq. Yüngül yağış döydiyindən, bu ağaclardan qalxan kəsif qoxu adamın boğazını acışdırırdı. Uzun müddət susub qaldıq.

O, kürəyini ardıcın gövdəsinə söykəyib oturmuşdu. Fikir məni götürmüşdü. Qeydlərimi edəndən sonra qollarımı belinə dolayıb, başımı qarnına söykəyib uzanmışdım... Amma bətnindən döyüntü, çırpıntı səsi gəlmirdi, görünür, hələ tez idi. Brilyantın barmaqları yosunda balıq kimi titrəyə-titrəyə saçlarımda eşələnirdi. Yaddaşımın bumbuz küləklər dolaşan bomboş künc-bucağında özüm də eləcə eşənək atırdım. Dünyada görməyimlə unutmağım bircə an çəkən nə varsa, hamısının izini tapacağımı düşünürdüm, yaşantılarımın həyəcanından əsim-əsim əsirdim... Svetadan, Maratdan tutmuş, meyiti qeybə çəkilən o nurani qocayacan gəldiyim yol isə, bu an, məndən ötrü cəmi bir neçə saniyəlik idi...

Uzaqda itlər ulaşmağa başladı. Əvvəl fikir vermədim. Sonra ulartının getdikcə artdığını, ardınca dərə bounca vahiməli bir uğultu qopduğunu duyunca başımın içi gizildədi. Sonra elə bil uğultu birə beş artdı. Mən içimdəcə əsib-titrəməyimdə davam edirdim, elə bil, çöldə də hər şey yellənirdi.

– Biriş, bu nədi?

– Deyəsən, zəlzələdi, İsi! Vallah, zəlzələdi deyəsən. Yoxsa, itlər bu uzunda ağız-ağıza verib ulaşmazdı...

Brilyantın sözü ağzında qaldı. Yer möhkəm silkələnməyə başladı. Lap beşik kimi yırğalandı. Ardıcların sıldırıma sarı olan tərəfindəki kolluğun üstünə yuxarıdan daşlar qopub tökülməyə başladı. Kolluq qəfil çökdü, qayalıq göz qırpımında uçub aşağıya yuvarlandı. Həmin kolun dibinə yığdığımız iş avadanlıqlarını, gips kisəsini, mücrünü uçqunun necə aparacağını hiss elədim. Brilyantı buraxıb özümü irəli atdım ki, heç olmasa əlimi nəyəsə ilişdirib xilas eləyim, əvəzində ayağım altından daşlar uçdu. Brilyantın qıyyası yeri-göyü zəlzələdən də betər silkələdi. Mən bircə onu bildim ki, bütün bədənim boşluqdan asılı qalıb... O an, hələ də ayaqda duran qocaman ardıc ağacının uçmuş qayalar arasından sallanan qırmancvari, amma kifayət qədər yoğun kökündən əlimi necə atıb yapışdığımı heç cür anşıra bilmirəm. Bunu necə etdiyimi bir Allah bilir... Ah!..

Brilyanta yalvarırdım ki, yaxın gəlməsin. Onsuz da məni çəkib çıxarmağa gücü çatmayacaq. O, sözümü eşitmək belə istəmirdi, uçqunun qırağında – bayaq dincəldiyimiz yerdən bir az bəridə ağzı üstə sərələnərək əlini uzadıb biləyimdən yapışmışdı. “Qorxma!.. Qorxma!..” qışqırırdı. Elə tutmuşdu ki,

sanırdım qoluma polad qandal vurublar. Get-gedə biləyimi necə sıxırdısa, az qalırdı ağlım gizlənə. Amma dartıb məni dibi görünməyən uçqunun ağzından qurtarmağa gücü çatmırdı. Üzünə dikmişdim gözlərimi, üzünə... Düz gözlərinin içinə baxırdım... Elə bil, onu heç vaxt bu qədər yaxından görməmişdim... Bu nədi, İlahi, bu nədi? Üzü çilçıraq kimiydi... Çilçıraq... Hə, çilçıraq düşdü yadıma. Çəhrayıya çalan, əndrəbadi çilçıraq. Leninqradda sonuncu dəfə gördüyüm işıq... Sonuncu dəfə gözlərimin udum-udum udduğu həmin işıq düşdü yadıma... Brilyant güc verdikcə gözlərini yumurdu, bu zaman, elə bil üzü çilçıraq kimi sönür, dünyaya qaranlıq çökürdü... Mən ona yalvarırdım ki, “özünü incitmə, bizimki bura qədərmiş, Biriş, burax məni...” Zərif dodaqları, üzünün bütün cizgiləri qəribə tərzdə əsim-əsim əsirdi, elə bilirdim, bu dəqiqə nəsə başqa bir qüvvə onu susdurub sakitləşdirsə, bu titrəyiş dayansa, dünyanın sonu çatacaq... Amma hansı şəkildə? – bax, bu, müəmmaydı... Eynən onun biləyimdən yapışdığı kimi, əlim ardıcın qırmancvari kökündən necə tutmuşdusa, elə bil barmaqlarımı oraya qaynaq etmişdilər, boşalmaq, yorulmaq, qopmaq bilmirdi. Başımın üstündə çilçıraq kimi yanıb-sönən Brilyantın üzündəydi gözlərim. Ayaqlarım yellənir, bədənim gərəksiz bir çuxa kimi asılıb qalmışdı uğultulu boşluğun üstündə. Uzaqlarda, aşağılarda itlər hələ də ulaşır, hürüşür, dərənin dibindən qəribə səslər gəlirdi. Bir də kəndlərin yerindən duman kimi toz qalxırdı yuxarı, üzümü çevirib baxa bilməsəm də, oraların əksini Brilyantın get-gedə dumanlanan gözlərində görürdüm...

– Burdadılar!.. Burdadılar, gəl! Tez ol!

Səs tanış idi, amma bilmirdim kimin səsiydi.

O səsi eşidincə Brilyant çığırdı:

– Burdayıq! Burdayıq! Tez olun, qurban olum, ay dayı, tez olun!

...Məni sürüyüb leş kimi uçurumdan xeyli aralıda yosma ardıcın altına uzatmışdılar. Sinəmin sağ tərəfindən dəhşətli ağrı qopmuşdu. Qabırğam sınmışdı deyəsən. Onlar iki nəfər idi: biri məni çağırıb evdən çıxaran, nurani qocanın yanına gətirən, peysəri buluda oxşayan adam, o biri isə, qocanın yanındakı cüvəllağıya bənzətdiyim kişi.

Brilyantla nə barədə danışdıqlarını bilmirəm, astadan nəsə üyüdüb-tökürdülər. Mənsə özlüyümdə gözümün önünə gətirirdim ki, əlim bayaq tutduğum ardıcın kökündən necə qopur, necə uçqunun dibinə yuvarlanıram, bu zaman bir cüt qanadım necə çıxır və mən xeyli aşağılarda çığırışa-çığırışa uçuşan ala sığırçınların perikmiş dəstəsinə necə həvəslə qoşuluram...

– Mücrünü qoruya bilmədin...

Çörəksatan idi. Qucağında kəhrəba rəngli tüklü bir pişik, böyrümdə bardaş qurub oturmuşdu. Adəti üzrə qımışırdı.

“Bu hardan gəlib çıxdı? İndi mən də soruşum ki, hanı “quşum uç” böcəyi? Nə istəyir bu köhnə işverən?”

– Hə, deyəsən, qabırğalarım sınıb...

– Qabırğalarında-zadda heç nə yoxdu, qardaş. Qalx ayağa bir “Heyvagülü” oynayaq. – Bu isə Bomj idi. Üzümə qımışa-qımışa əllərini ovuşdururdu. – Hələ bax, Əntəri də gətirmişəm, odu haa, qayanın başında oturub, bitdənir... hi-hi...

Qocanın “Onların üçü də vaxtilə paqon daşıyıb... ” sözləri düşdü yadıma... Yadıma gəlir...Soruşanda ki, “Əntər də?” “ –“Hə... O da. O, meymunların içində ən yekələrindən biri olub vaxtilə... Səni də, məni də bu günə onlar qoyub...” – demişdi qoca.

Yenə ah çəkdim:

– Aşağılarda camaat qırılıb-batdı yəqin... – özümdən ixtiyarsız gözüm doldu. – Bəs Brilyant hanı?..

– Getdi... – Məni qocanın yanına aparan kişi dilləndi. – Qəfil nənəsi düşdü yadına... Səni mənə tapşırdı...

– Yəqin kənd-kəsək alt-üst olub, hamı qırılıb batıb... – zarıya-zarıya bir də dedim.

– Guya orda sağ adam vardı ki?.. – Bu səs tanış idi. Amma kimin dediyini bilmirdim. Gözümü gəzdirib qayanın başına baxdım. Əntər bitdənə-bitdənə, çiyinlərini ata-ata iyrənc-iyrənc qımışır, rəngi dalından seçilməyən ağzını aralayıb, eybəcər dişlərini ağardırdı... "Mən səndən ötrü niyə ağlayırdım axı, ay əkəc meymun?!"

Bunlar hardan, nə cür, niyə başıma toplaşmışdı? – bilmirəm. Amma elə bil, hər birindən canımda nəsə vardı və anlamadığım, o "nəsə" dediyim şey bunları özümdən ixtiyarsız mənə necə doğmalaşdırmışdısa, hər birini ayrı-ayrılıqda özümə yüz illərin əziz-xələfi sanırdım. Sanki yanımda olmasaydılar, ürəyim partlardı. Bəs o "nəsə"nin adı yoxdu? – bilmirəm, bax, onu qətiyyən bilmirəm və bilmək iqtidarında da deyiləm.

"Bəs hanı qeyd dəftərim? Yoxdu!.. yoxdu!..Yəqin o da getdi uçurumun dibinə... Hayıf!.." Gözlərim doldu.

İtlər bir də ulaşdı, dərə bir də uğuldadı, yer bir də silkələndi... Bu dəfə daha möhkəm, bayaqkından daha betər.

"Hara getdin, Biriş, hara?"

Bir onu bildim ki, gözümü yumub-açınca həndəvərimdə heç kim qalmayıb. Təkcə sinəmin sağ tərəfindəki ağrıydı, bir də gözümü zillədiyim bözumtul göy üzü.

* * *

... Nurani qoca yatağımın qırağında balaca kətildə oturmuşdu. Danışdıqca gözlərini daxmanın yalqız pəncərəsinə dikir, üzümə də baxmırdı.

Brilyant iki stəkan çay gətirdi. O, otağı tərk edincə qoca davam elədi:

– Sənin o meymunun, o əntərin deyir ki, hamınız məndən törəmisiz, əcdadınız mənəm. Neyləsəniz də, adıma nə desəniz də, xeyri yoxdu, qanım damarınızdadı, deyir...

O, çaydan bir qurtum udub yüngülcə qımışıb sözünə davam elədi:

– Day demir ki, qanında çömçəquyruqlar üzür eey... Çoxdan murdarlanıb qanı, çoxdan...

Bilmədim nə deyim. Qocaya baxıb mən də gülümsəməyə çalışdım. Amma alınmadı, üz-gözüm əyildi. Çünki möhkəm ağrıyırdım.

Qoca çənəsini ovuşdurub müəmma dolu baxışlarını üzümdə dolandırdı:

– Hayıf o mücrüdən... Heç bilirdin içində nə vardı?

Güc-bəla dilləndim:

– Yox...

Qoca bir az fikrə gedib, mənalı-mənalı bir də üzümə baxdı:

– Elə bilməsən yaxşıdı. Yoxsa ürəyin partlar... – Sonra çaydan bir-iki qurtum vurub gülümsündü. – Yaxşı, de görüm o mücrünün içindən nə çıxsa sevinərdin?

Heç bilmədim hardan ağlıma gəldi, düşünüb-daşınmadan, ixtiyarsız pıçıldadım:

– Şar...

Qocanın üzü göz qırpımında tutuldu, bayaqkı ovqatından əsər-əlamət qalmadı. Bir-iki dəqiqəliyə gözünü qapayıb susdu, sonra sakitcə yerindən qalxıb qapıya sarı getdi:

– Bilirsənmiş... Hər şeyi bilirsənmiş... Zalım balası... Yəqin lap uşaq kimi ona da inanırsan ki, div gündə üç adam yeyir...

Onun ardınca zarıdım:

– Nəyi?.. Nəyi bilirəm mən axı, nəyi?..

O, sürətlə qapıdan çıxdı və artıq ayaqqabılarını geyəndə dediyi bu sözləri eşitdim:

– Necə yəni nəyi? Zalım balası, necə yəni nəyi? Əlbəttə, kimin kim olduğunu, nəyin nə olduğunu deyirəm, əlbəttə, bilirsənmiş...

Gedəndə Brilyanta nəsə pıçıldadı, amma mən eşitmədim. Sonralar nə qədər yalvarıb-yaxarsam da, o, mənə qocanın gedəndə nə dediyini söyləmədi. And verdi ki, bir də bu barədə soruşmayım. Ancaq bir dəfə bilmirəm, necə oldusa, ağzından qaçırdı... hə... Birişim qaçırdı ağzından. Qoca onda deyibmiş ki, sən demə, o vaxt mən Əntərin deyil, o mənim qabırğalarımı qırıbmış, mən onun dərisini deyil, o mənim gönümü soyubmuş. Həm də təkcə mənim yox, ölülü-dirili hamımızın. Baxmırmış day sən havanı yırtmısan, ya yox... Qoca həm də gedəndə yaşıl rəngli bir şar bağışlayıb Brilyanta, deyib ki, Bomjla Əntər düz bir həftə uçurumun dibində mücrünün qırıq-quruğunu axtarıb, axır ki, tapıblar. İçində bu şardan başqa heç nə olmayıb. O həm də hayıfsılanıb ki, "hayıf o mücrüdən... bir də onu görən olmayacaq... ismarıc bir kərən olur, cəmi bir kərən... qoruya bilmədik onu..." – "Bəs bu şarı neyləyim?" – soruşub Brilyant. "Verərsən İshaqa, ta içinə su-zad doldurmasın, o məqamı keçmişik artıq. İsmarışdan ötrü hamımız bir yerə yığışanda üfürüb buraxar göyə. Təkcə onun nəfəsinə hesablanıb bu şar... Bəlkə yetişdi dərgahımıza, bəlkə yetişdi... ya qismət! Görək nə olur..."

* * *

...O gün nurani qocanın ölüb-dirildiyi qayanın başında, bal arıları "orkestrinin" vızıldaşdığı yerdə məni və Brilyantı arxası üstə uzadıb sinəmizəcən mələfəyə bürümüşdülər. İsmarıc günü idi. Deyilənə görə, yırtıq havamız bizi çağırırdı geri. Arıların toy-bayramıydı sanki, vızıltıları aləmi götürmüşdü başına. Göyün apaydın, masmavi üzü sakit idi. Başımızın üstündə üzündən nur çilənən həmin qoca, sol böyrümdə dili-dodağı titrəyə-titrəyə əyləşib səssizcə ağlayan bibim, noxudu rəngli kəlağayısına bürünüb büt kimi dinməz oturan, hərdən kirpiksiz, üstü zərif göy damarlı xırdaca göz qapaqlarını sıxıb gözündən selləmə yaş tökmək istəyən, amma həmişəki kimi nədənsə, ağlaya bilməyib sızıldayan, əlləri qoynunda Tirməgül nənə, bir xeyli aralıdasa, yalqızca dayanmış Fərəc... Fərəc... hə, üzümə baxa bilməyib yaş dolu gözlərini qayalıqdan aşağılara – dərənin dibinə zilləyib susan əsgərlik yoldaşım, arxa-dayağım, can-ciyər Fərəc... Sağ tərəfimdə siqaretini paravoz kimi tüstülədən Çörəksatan, acıqlı üzündəki təbəssümündən qan daman, qəzəb yağan Musa kişi, əhli-kef Bomj oturmuşdu və təbii ki, tanıyıb-tanımadığım bir neçə başqa adam da vardı. Onlardan bir az aralıda, hamıdan yuxarıda, hündür bir daşın üstündə Əntər də şöngüyüb həmişəki kimi, qımışa-qımışa bitdənir, üstdən aşağı hamını süzürdü... Üz-gözündən yenə də "hamınız məndən törəmisiz, hamınız! Neyləsəniz də qanım damarınızdadı!.." hikkəsi oxunurdu.

"Mən sənin heykəlini niyə düzəltdim axı, niyə?"

Arakəsməyə salıb Çörəksatandan soruşdum ki, "mənə verdiyin o mücrü hardan idi səndə? Niyə mənə vermişdin?" Çox fikrə getdi, amma xatırlaya bilmədi. Dilxor-dilxor: "Yaddaşım məhv olub. Bir onu bilirəm ki, kimsə mənə verib sənə çatdırmağımı xahiş eləmişdi. Amma kim? – bax, onu xatırlaya bilmirəm... Sədrəddin həkimin yanına gedəm gərək..." – dedi. Quruyub qaldım. Çünki Sədrəddin həkim də bir az aralıda Nuhbala kişi və Şeyx Zülfüqarla

birlikdə çömbəlib oturmuşdu, qol saatını qurdalayırdı. İxtiyarsız pıçıldadım: “Özün kömək ol, mücrü yiyəsi!..”

Əllərində iri çiyin çantaları tutmuş iki nəfər cavan oğlan da vardı ki, onları deyəsən, birinci dəfəydi görürdüm. Onlar avtobusda mənə toxunmaqdan qorxaraq düşüb qaçan oğlanlara çox oxşayırdı. Nə bilim... “Bunlar kimdi belə? Burda nə gəzirlər?” - soruşdum. Qoca: “Sənin kimi taksidermistdilər... Zəlzələdə ikisi də havanı yırtıb... Hə, bu tezkən havanı yırtıblar... yazıqların ikisi də cavan uşaqdı... Hə, bunlar səndən sonra oxuyub gələnlərdəndi. Deyirsən, burda nə gəzirlər? Nə gəzəcəklər? Heç nə... Sizi bəs bura niyə uzatmışıq? Bir azdan bu qayanın belində ikinizin də heykəlini yapacaq onlar. Qismət mənim yox, sizinmiş... Bəxtəvərlər...”

Bir az əvvəl qoca şarı “üfür!” demişdi. Mən də üfürüb Brilyanta vermişdim. O da uzandığı yerdəcə, dodaq boyasıyla üstünə adlar yazıb, buraxmışdı göyə, şar aram-aram üzüyuxarı dikəlirdi. Əntərdən başqa hamı başını qaldırıb ona baxırdı. Gözlərim üzlərdə qalmışdı. Elə bilirdim, biz bir gəminin içindəyik, harasa naməlum bir yerə üzürük, amma sahil deyilən şey yoxdur, çarəsizcəsinə göyərtəyə çıxıb yeganə ümid yerimiz olan göy üzündəki o yaşıl rəngli şarı seyr edirik. Şar isə, mehsiz-küləksiz göydə vecsiz-vecsiz, ağır-ağır dikəlməkdədir. Hamının da ümid dolu gözləri ona baxır, xilas umur. Bircə Əntərdən başqa – o, gəminin böyrünə bağlanmış yeganə xilas kamerası, bir hava balonu olduğunu düşünürdü sanki, qımışır, elə bilirdi, dar ayaqda hamı üzüb sahilə çıxmaqdan, qurtulmaqdan ötrü yalvara-yalvara ona sığınacaq və buna görə şellənirdi...

Qayalıqdan bir xeyli aşağılarda, dərə boyunca ala sığırçınların dəstələri çığırışa-çığırışa belədən-belə uçub keçir, elə bil demək istəyirdilər ki, “buralar bizimdir, unutmayın, bizimdir buralar!..”

Brilyant əlimi ovcuna almışdı, sığallaya-sığallaya, xoşbəxt-xoşbəxt üzümə baxırdı. Mən kərən-kərən:

– Biz gəlməyik, vallah, Biriş, gəlməyik biz... Bir adam tapmazsan ki, üzündə torpağın, suyun, havanın əlaməti olsun… – desəm də, halı dəyişmirdi.

– Xəbərin var? O şarın üstünə hamının adını yazmışam. Lap sənin gecələr yuxuda pıçıldadığın o Sveta ləçərin də, Maratın da… Hələ birinci katibimiz Firidun Musayevin, sonra ikincinin – o biqeyrət Haqverdinin də… Hə… Bu bitvurmuş Əntərdən başqa - hamının…

* * *

…Körpəmiz doğulmadı. Bəlkə də elə yaxşı oldu ki, gəlmədi bu dünyaya. Biz beləyiksə, bu zülümləri çəkiriksə, gör indi bizdən törəyənlərin başı hansı bəlalar içində olacaq. Zəlzələdə Brilyant necə qorxmuşdusa, onu tələf eləyib və heç kimə də bildirməmişdi. Demə, məni ardıcların altında qoyub tələsik kəndə qayıtmağının da səbəbi bu imiş. Salıbmış uşağı… Hə, körpəmiz dünyaya gəlmədi. Ona ad da fikirləşməyə vaxt tapmadıq. Başqaları isə adını nə Həllac qoya bildilər, nə Burcu, nə də, Əntər demişkən, Volodyadan-zaddan. Tələf olmağını heç kimə də demədik. Hamının da gözü indiyəcən yolda qalıb. Mənim yox, onun nəfəsinə daha çox bel bağlayırlar, xilası daha çox onun nəfəsində görürlər…

* * *

...Sənsiz neylərdim, Biriş, neylərdim görən?.. Bir vaxtlar anam deyirdi ki, “qızılca çıxartmayan adamlar öləndən sonra, qəbirdə də olsa bu azara tutu-

lurlar, sümükləri də olsa səpir". Məncə, Biriş, sevgi də qızılca kimidir. Bütün ömrü boyu heç kimə aşiq olmayanların, eşqin nə olduğunu heç vaxt bilməyənlərin də sevgisi qızılca kimi gəlir. İnsanlar lap can üstə, axır nəfəsdə belə, bircə anlıq da olsa, Ölüm Mələyinə də olsa, vurulurlar... Başqa cür ola bilməz... Çünki, istər qəbirdə ol, istər Sibirdə, hansı yaşda, hansı məqamda, harda olmasından asılı deyil, gec-tez bu mərəzə tutulmalıdır adam – sevgisiz olmaz... Olmaz, billah, batmır ağlıma, Birişim. Arılar, kəpənəklər üstünə hücum çəkdisə – heç nə mənə, aşiqsən deməli, havan yırtılsa da üzünə əsən nəfəsdən gül olduğunu biləcəksən... Ondan sonrası da ki bəllidi... Səni çox sevirəm, Birişim, çox!..

* * *

Kim necə başa düşürsə - düşsün, bizi buraya bir lövbər kimi atsalar da, hələ darıxmırıq.... Şarın gedib gözdən itdiyi, havanın yırtıldığı yerdən hərdənbir də olsa, bir səs gəlir qulağımıza:

– Bəs darıxmırsız?..

Elədə Brilyant başını bulayıb susur. Mən bağırmaq istəyirəm ki, "yox!" Demək istəyirəm ki, "qızılcam sağalan deyil heç vaxt! Sümükləriməcən səpmişəm... Sevgidəyəm eey, səs yiyəsi, sevgidə!.." Amma səsimi də çıxarmıram, heç bir cavab vermirəm. Həmişəki kimi, Brilyantın xoşbəxt üzünə baxıb, ah çəkib susuram... Brilyant da eynən etdiklərimi təkrarlayır. Bal arıları bizə dəyib-toxunmur, yəqin gözlərimizin çalasında çobanyastığı bitən günü gözləyirlər... Bu qayalıqda nə yaxşı ki, yanaşıyıq. İkimiz də birdən ah çəkib yuxarılara baxanda, masmavi göy üzündəki havanın yırtılan yerləri, açıla qalmış gözlərimizə qoşulub bir ağızdan uzun-uzadı lalların xorunu başlayırlar oxumağa... Eşidən varmı? – o, bizlik deyil artıq. Bircə onu bilirəm ki, hər tərəfinə ipək hörüb içində rahatca ölən baramaqurdu kimi bir şeyik. Onun məsumluğu, xoşbəxtliyi hamı üçün əlçatmazdı, hamı üçün...

* * *

Təbii ki, göy üzündə şardan əsər-əlamət yoxdu. Ünvanına çatıb-çatmayıb, onu dəqiq bilmirik. Bəlkə də çatıb. Çünki nə zamandı burdayıq, hələ bir dənə də olsun sərçə görməmişik… Salamatlıqdı, deməli. Ala sığırçınlarsa çox-çox aşağılarda elə çığırışır, elə çığırışır... Hər dəfə elə bilirəm, uçurumun dibində parça-parça olmuş o sirri-xuda, o köhnə mücrüyə elegiya oxuyurlar…

***28.12.2017 – 2019. 03. 03.***
***Bakı-Şamaxı-Bakı***